**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**HƏSƏN BAYRAM OĞLU BAYRAMOV**

# ÇAR RUSİYASININ AZƏRBAYCANDAKI TƏHSİL SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** **Hüseyn Mustafa oğlu Əhmədov**
*pedaqogika üzrə elmlər doktoru, professor Rusiya Dövlət Təhsil Akademiyasının xarici üzvü, Əməkdar ali məktəb işçisi*

**Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*

**Camal Mehdi oğlu Mustafayev**
*tarix üzrə elmlər doktoru, professor*

**Aparıcı təşkilat:** Bakı Slavyan Universiteti Pedaqogika və psixologiya kafedrası

Müdafiə "13" iyun 2017-ci il tarixində saat $14^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki BD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana -İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat " ___" _________ 2017-ci il tarixdə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** İsa Namaz oğlu İsmayılov
*pedaqogika üzrə elmlər doktoru, dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan yeni tipli müstəqil dövlət quruculuğunun tarixi təşəkkül mərhələsini uğurla başa çatdıraraq bütün istiqamətlərdə surətli inkişafı təmin etməkdədir.

Respublikada maarifin, təhsilin inkişafına, keçmiş mədəni irsin öyrənilməsinə və qorunub saxlanılmasına, onun daha da zənginləşdirilməsinə daim böyük diqqət və qayğı göstərən ulu öndər Heydər Əliyevin fikirləri müasir mərhələdə elmi tədqiqatları yeni dövrün elmi, nəzəri və metodoloji tələblərinə müvafiq aparmaq üçün də istiqamətverici rol oynayır.

Təsadüfi deyildir ki, ulu öndər H.Ə.Əliyev dönə-dönə tariximizin, xüsusilə də XIX-XX əsrlər tariximizin düzgün, obyektiv şəkildə öyrənilməsi zərurətini göstərərək, bu mərhələdə formalaşmaqda olan ictimai-humanitar düşüncənin daşıyıcıları olaraq milli maarifçiliyimizin əhəmiyyətini ön plana çəkirdi. O deyirdi: "XIX əsrin sonu – XX əsrin əvvəlləri dünyada yeni münasibətlərin bərqərar olduğu bir dövr kimi Azərbaycan xalqının həyatının bütün sahələrində də öz təsirini göstərmişdir. Bu dövrün ictimai prosesləri iri sənaye şəhərinə çevrilmiş Bakını bütün Qafqazın iqtisadi mərkəzi etmişdir. …Bu hərəkat XX əsr ədəbiyyat, mədəniyyət və siyasətinin nəhəng simalarının yetişməsi üçün zəmin yaratdı"[1]

Qloballaşmanın çağırışları və geosiyasi mübarizənin daha da kəskinləşdiyi bir dövrdə dünya miqyasında yerimizi müəyyənləşdirmək baxımından da öz tariximizi daha dolğun təqdim etmək müstəsna əhəmiyyətə malikdir. Həm də ona görə vacibdir ki, bütün sahələrdə erməni ekspansiyası ilə qarşılaşmışıq. "Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir... İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur"[2].

Tədqiqatın əhatə etdiyi dövrə xüsusi marağın artması həm də onunla izah edilir ki, XIX-XX əsrin əvvəllərində, çarizmin qatı müstəmləkəçilik siyasətinə baxmayaraq, Şimali Azərbaycanda Avropa yönümlü dünyəvi mədəni-sosial dəyərlər əvvəlki dövrlərə nisbətən ciddi uğurlar qazanmışdır.

---

[1] Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. "Respublika" qəzeti, 30 dekabr 2000, №298 (1036)

[2] İlham Əliyevin AMEA-nın 70 illiyinə həsr olunmuş ümumi yığıncağındakı nitqi. 09 noyabr 2015. www.president.az

Akademik Ramiz Mehdiyevin sözləri ilə desək "... Ən qədim dövrlərdən ta günümüzədək Azərbaycan tarixi vahid elmi konsepsiyaya uyğun olaraq bir fənn kimi ali və orta məktəblərdə lazımınca tədris olunmaldır. Tarix üzrə dərsliklər yüksək ixtisaslı alimlərin və təcrübəli pedaqoqların birgə əməyinin nəticəsi olmalıdır."[1]

Tarixi faktların müqayisəli təhlili bu dövrdə Çar Rusiyasının Quzey Azərbaycanda yürütdüyü təhsil siyasətinin öyrənilməsinin mühüm vəzifə olduğunu göstərir. Azərbaycan milli təhsil tarixinin öyrənilməsinə və dərk edilməsinə olan sosial-ideoloji ehtiyac bu sahədə yeni tədqiqatların aparılmasını tələb edir. Digər tərəfdən Şimali Azərbaycan məktəbinin tamamilə yenidən qurulduğu çağdaş dövrdə keçmiş tarixi təcrübənin obyektiv öyrənilməsi, onun neqativ və pozitiv dərslərinin aydınlaşdırılması, tarixi təcrübədən bəhrələnmək son dərəcə vacibdir.

Tədqiqatın mövzusunun - "Çar Rusiyasının Azərbaycandakı təhsil siyasətinin əsas istiqamətləri" kimi müəyyən edilməsini məhz sadalanan ictimai-tarixi, ideoloji-nəzəri və milli-mənəvi çağırışlar diqtə etmişdir.

XIX-XX əsrin əvvəllərində təhsil sahəsində hökumət siyasətinin özünəməxsus tendensiyaları və xüsusiyyətləri yuxarıda qeyd etdiyimiz səbəblərdən ayrıca bir mövzu şəklində, məxsusi olaraq araşdırılmamışdır. Doğrudur, XIX-XX əsrin əvvəllərinə aid Sovet dönəmində təhsil tarixinin tədqiqinə bir neçə dissertasiya və əsərlər həsr edilmişdir. Onların içərisində həm doktorluq (H.M. Əhmədov[2], Ə.X. Paşayev[3], Ə.Y. Seyidov[4], S.Ə.Əliyeva[5], E.M. Quliyeva[6]), həm də bir neçə namizədlik dissertasiyası

---

[1]Mehdiyev R.Ə. İctimai və humanitar elmlər: zaman kontekstində baxış. "Respublika" qəzeti, 10 dekabr 2009

[2] Əhmədov H.M. XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişafı: Ped.elm. dok. ... dis. Bakı, 1972, 580 s.

[3] Пашаев А.Х. Развитие начального образования на Кавказе XIX - начале XX веков. Дис. ...докт. пед. наук. Тбилиси: 1990, 295 с.

[4] Сеидов А.Ю. Основые представители педагогической мысли Азербайджана в XIX веке (А.А.Бакыханов, С.А.Ширвани и Г.Б.Зардаби). Дис. ... док. пед. наук. Баку: 1947, 611 с.

[5]Алиева С.А. Развитие практики и теории нравственного воспитания дореволюционном Азербайджане. Дис. ...док. пед. наук. Ташкент: 1990, 284 с.

[6] Кулиева Э.М. Теория и практика трудового воспитания в XIX – начале XX века в Азербайджане (1828-1920 г.г.) Дис. ...док. пед. наук. Баку:1996, 292 с.

(Ə.M. Tağıyev[1], S.X.Xəlilov[2], Z.Q.Axundova[3], F.Ə. Seyidov[4], A.Rəfibəyli[5], İ.A.Mollayev[6], İ.N.İsayev[7], S.Ə.Əzimova[8]) və b. vardır.

Müasir mərhələdə MDB ölkələrində tədqiqat işimizlə bilavasitə və bilvasitə səslənən dissertasiyalar da az olmamışdır. Onlardan V.M.Lobzarov[9], O.V. Mixeyeva[10], V.P. Borovix[11], İ.S. Smirnova[12], Y.Y.Samartseva[13], T.N. Xabeyev[14], I.Q.Belyayeva[15], E.N. Mişakova[16] və b. göstərmək olar.

Lakin bu tədqiqatlar əsasən tarixi faktların üzə çıxarılması, statik şərhi, tədqiqə cəlb edilən təhsil sahəsinin mənzərəsinin təsviri və onların

---

[1] Tağıyev Ə.M. Sabirin maarifçilik və pedaqoji görüşləri: Ped. fəls. dok. ... dis. Bakı: ADU, 1943, 263 s.

[2] Xəlilov S.X. 1917-1920-ci illərdə Azərbaycanda xalq maarifi: Ped. fəls. dok. ... dis. Bakı: ADU, 1945, 206 s.

[3] Axundova Z.Q. Azərbaycanda qadın təhsili tarixindən (1900-1914): Ped. fəls. dok. ... dis. Bakı: ADU, 1949, 166 s.

[4] Сеидов Ф.А. Роль Закавказской (Горийской) учительской семинарии в подготовке азербайджанских учительских кадров. Автореф. дис. ... канд. пед. наук. Тбилиси: 1963, 30 с.

[5] Rəfibəyli A. Azərbaycanda maarifin inkişafında rus-tatar (Azərbaycan) məktəblərinin rolu: Ped. fəls. dok. ... dis. Bakı: 1968, 241 s.

[6] Mollayev İ.A. Məhəmməd Tağı (Sidqi) Səfərovun pedaqoji fəaliyyəti və pedaqoji görüşləri: Ped. fəls. dok. ... dis. Bakı: API, 1970, 245 s.

[7] İ.N.İsayev. A.Səhhətin təlim-tərbiyə haqqında fikirləri. Ped. fəls. dok. ... dis. Bakı, 1973, 186 s.

[8] Азимова С.А. Педагогическая деятельность и педагогические взгляды Ф.Кочарлинского: Автореф. дис. ... канд. пед. наук. Баку: 1975, 32 с.

[9] Лобзаров В.М. Развитие элитного общего образования в России XVIII-XX веков: Автореф. дис. ... докт. пед. наук. Москва, 2009, 72с.

[10] Михеева О.В. Гуманизация образовательного процесса в кадетских учебных заведениях первой половины XVIII - начала XX века. Дис. на соиск. учен. степ. кан. пед. наук. Смоленск, 2011, 195с.

[11] Боровых В. П. Развитие традиций трудового воспитания в России второй половины XIX - начала XX в.: Дис. на соиск. учен. степ. канд. пед. наук. Волгоград, 2011, 215 с.

[12] Смирнова И. С. Развитие идей педагогической антропологии в России : вторая половина XIX-начало XX вв.: Автореф. дис. ... канд. пед. наук. Майкоп, 2009, 32 с.

[13] Самарцева Е. Ю. Элитарное образование в России XIX - начала XX веков : на материале Смоленской губернии : Дис. ... канд. пед. наук. Смоленск, 2012, 187 с.

[14] Хабеев Т. Н. Социально-политические основания образовательных реформ в России с древнейших времен до XXI века: Автореф. дис. ...докт. пед. наук. Нижний Новгород, 2012, 50 с.

[15] Беляева И. Г. Развитие среднего специального художественного образования в России во второй трети XIX - начале XX веков: Автореф. дис. … канд. пед. наук. Смоленск, 2012, 24 с.

[16] Мишакова Е.Н.Становление и развитие дошкольных образовательных учреждений в России второй половины XIX - начала XX века : Дис. ... канд. пед. наук. Волгоград: 2012, 164 с.

oynadığı ictimai-tarixi rolunun əhəmiyyətinin göstərilməsindən ibarətdir.

Bu dövr Azərbaycan təhsil tarixinin görkəmli tədqiqatçısı, akademik Hüseyn Əhmədov, milli məktəb və pedaqoji fikir tariximizin qızıl fonduna daxil olmuş "XIX əsr Azərbaycan məktəbi" adlı əsərində qeyd edirdi ki, bu dövrdə "yeni tipli dövlət məktəblərinin meydana gəlməsi ilə Azərbaycanda xalq maarifinin şəbəkəsi xeyli genişləndi, ... təhsilin rus dilində aparılmasına baxmayaraq, bu məktəblərin meydana gəlməsi və yayılması Azərbaycanda mühüm mədəni hadisə olub, əsrlərdən bəri mövcud olan köhnə üsullu məktəb və mədrəsələrin yenidən qurulmasına, ana dili təlimi ideyasının və ana dilində yeni üsullu məktəblərin meydana gəlməsinə və inkişafına əlverişli zəmin hazırladı..."[1]

Professor Əjdər Ağayev Rusiya imperiyası daxilində qeyri-rus xalqların məktəb və pedaqoji fikir tarixinə toxunaraq yazır ki, "...Qafqazlılar öz gənclərini Rusiya və Avropanın Sankt-Peterburq, Moskva, Derpt, Xarkov, Kiyev, Paris, Berlin kimi şəhərlərinin ali təhsil müəssisələrində oxutmağa başladılar... Güney Qafqazın Rusiyanın tərkibinə daxil edilməsindən sonra həmin regionda, başqa sahələrdə olduğu kimi, maarif sahəsində də əsaslı dönüş başlandı"[2]

Professor Fərrux Rüstəmov isə geopolitik reallıqlara rəğmən təhsil tarixinin başlıca inkişaf tendensiyalarını göstərərək yazır: "...Cəmiyyətin iqtisadi və ənənəvi tələbatına uyğun olaraq milli-dünyəvi təhsil sistemi və pedaqoji fikir formalaşırdı. ... Siyasətçiləri və pedaqoqları təhsil-tərbiyədə xəlqilik ideyası daha çox düşündürürdü. Avropa təhsilində baş verən yeniliklər Rusiyada məktəb və pedaqoji fikrin inkişafına güclü təsir edirdi. Rusiyanın tarixi inkişaf yolu ilə bağlı diskussiyalar, şərq-qərb problemi (slavyanofillər və qərbçilər-F.R.) maarifçilərin də diqqət yetirdikləri sahələrdən idi"[3]

Araşdırmalar belə bir qənaətə gəlməyə əsas verir ki, XIX əsr və XX əsrin əvvəllərində təhsil sahəsində mütləqiyyətin yeritdiyi siyasətə müxtəlif istiqamətlərdən toxunmaqla onun qiymətləndirilməsinə müəyyən qədər diqqət yetirilsə də, Şimali Azərbaycanda çar hökumətinin təhsil siyasəti müstəqillik dövründə elmi-tədqiqat işi olaraq pedaqoji problem kimi sistemli şəkildə öyrənilməmişdir.

---

[1] Əhmədov H. M. XIX əsr Azərbaycan məktəbi. Bakı, 2006, s.13
[2] Ağayev Ə. Ə. Seçilmiş əsərləri. 20 cilddə. II cild. Bakı: Mütərcim, 2013, s. 18
[3] Rüstəmov F. A. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006, s. 483

**Tədqiqatın obyekti** XIX əsr və XX əsrin əvvəllərində Şimali Azərbaycanda çarizmin həyata keçirdiyi təhsil siyasətinin təşəkkülü və inkişafı prosesidir.

**Tədqiqatın predmeti** Çar Rusiyasının Şimali Azərbaycandakı təhsil siyasəti və onun əsas istiqamətləridir.

**Tədqiqatın məqsədi** XIX əsr və XX əsrin əvvəllərində Qafqazda, o cümlədən Şimali Azərbaycanda yeni tipli təhsil sisteminin formalaşması ilə bağlı aparılan işlərin sosial-iqtisadi və siyasi-tarixi şəraitini, onun inkişaf dinamikasını və daxili məntiqini, təhsilin aktual problemlərinin həlli yollarını, sosial-maarifçi istiqamətlərini və təhsil siyasətini həyata keçirən subyektlərin fəaliyyətinin müsbət və mənfi məqamları ilə birlikdə onun təhsil siyasətinin əsas məğzini təşkil edən paradiqmasını üzə çıxarmaq və elmi təhlilini verməkdir.

**Tədqiqatın vəzfələri:**

- XIX-XX əsrin əvvəllərində Quzey Azərbaycanda təhsilin vəziyyəti və təkamülünün tam mənzərəsini yaratmaqla, milli maarifin və mədəniyyətin formalaşmasına onun təsirini müəyyənləşdirmək;
- XIX-XX əsrin əvvəllərində təhsildə idarəetmənin ümumimperiya modelinə keçidi, unifikasiya proseslərinin əsas mahiyyətini dəyərləndirmək;
- Azərbaycanda dünyəvi, dini və müsəlman məktəblərinin inkişaf prosesinin başlıca xususiyətlərini səciyyələndirmək;
- XIX əsrin axırları - XX əsrin əvvəllərində Rusiyada, o cümlədən Qafqazda və Şimali Azərbaycanda gedən ictimai-pedaqoji hərəkatın Vətənimizdəki təzahür formalarını, vüsətini, sosial-maarifçi bazasını, istiqamətlərini, nahəyat, təhsil sahəsində ictimai fəaliyyətin nəticələrini səciyyələndirmək;

**Tədqiqatın metodoloji əsasını** tarixi-pedoqoji faktlar, hadisələr, qarşılıqlı əlaqələr üzrə zəruri prosesləri öyrənmək, dərk etmək və ümumiləşdirmə məqsədilə tətbiq olunan metodların, nəzəri müddəaların və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın metodları:** arxiv sənədlərinin, tarixi pedaqoji tədqiqatların və müvafiq elmi-pedaqoji ədəbiyyatın öyrənilməsinə və təhlilinə, riyazi-statistik metodlara, tarixi-müqayisəli araşdırmalara istinad olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiyada XIX əsrin sonu və XX əsrin əvvəllərində Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra rus təhsil sisteminin, xüsusilə dün-

yəvi məktəblərin intişarının və onların fəaliyyətinin mürəkkəb dialektikası aşkarlanmış, çarizmin milli ucqarlarda, yəni geosiyasi arealda təsir dairəsini formalaşdırmaq üçün yürütdüyü təhsil siyasətinin, xüsusilə Rusiyalaşdırma (ruslaşdırma və xristianlaşdırma) siyasətinin mahiyyəti və məzmunu açılmış, elmi-nəzəri əsasları tarixi–pedaqoji kontekstdə üzə çıxarılmaqla, prosesin genezisi təsbit edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada tədqiq etdiyimiz dövrdə Qafqazda, o cümlədən Quzey Azərbaycanda Çar Rusiyasının yeritdiyi təhsil siyasətinin müəyyənləşdirilməsinə təsir göstərən amillər və siyasətin həyata keçirilməsinin mexanizmləri haqqında ümumiləşdirilmiş fikirlər nəzərə çatdırılmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyada əldə edilən nəticələr həmin problem üzrə bir sıra yeni mövzuların müəyyənləşməsinə və tədqiqinə əsas verir. Dissertasiya problemliliyinə, əhatəliliyinə görə pedaqogika tarixi kursunun tədrisində istifadə üçün əhəmiyyətlidir.

Dissertasiyanın materialları ali və orta ixtisas məktəblərinin professor-müəllim heyəti, doktorant, bakalavr, magistr, eləcə də mədəniyyət və ictimai-humanitar fikir tariximizlə maraqlanan geniş ictimaiyyət üçün gərəkli ola bilər.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

XIX və XX əsrin əvvəllərində Azərbaycanda tətbiq edilən təhsil siyasətinin və milli maarifçiliyin təşəkkülü ilə xarakterizə olunan yeni tipli ictimai-pedaqoji hərakatın tədqiqi aşağıdakı müddəalarla şərtlənməkdədir:

Birincisi, məktəb təhsilinin təşkil olunması, təminatı, məzmunu problemləri müzakirə olunarkən, həm Azərbaycan ziyalılarının, həm də Cənubi Qafqaz Tədris dairəsinə tabe olan məktəblərdəki çoxmillətli müəllim kontingentinin problemə yeni yanaşmaları;

İkincisi, Çar Rusiyası dövründə həyata keçirilən təhsil siyasəti kontekstində Azərbaycanda yeni tipli təhsilin təşəkkül tapması üçün tarixi zəminin yaranması;

Üçüncüsü, tədqiqatın əhatə etdiyi dövrdə Azərbaycanda yeni tipli məktəb təhsilinin inkişafı prosesində önə çıxan ictimai-maarifçi baxışlar;

Dördüncüsü, müasir mərhələdə Azərbaycanda təhsil sahəsində islahatların həyata keçirilməsi zəminində milli təhsil sisteminin təşəkkül tapması və inkişafı prosesinin spesifikliyinin müsbət və mənfi məqamları ilə nəzərə alınması böyük əhəmiyyətə malikdir.

**Tədqiqatın aprobasiyası və onun nəticələrinin təcrübəyə tətbiqi:** Tədqiqatın ayrı-ayrı mərhələlərində çıxarılan nəticələrdən Azərbaycan məktəb və pedaqoji fikir tarixi üzrə mühazirələrdə, seminar məşğələlərində istifadə olunmuşdur, həmçinin müxtəlif xarakterli, elmi-praktik konfranslarda məruzələr oxunulmuşdur. Tədqiqatla bağlı zəruri mövzular "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunda lazımi yer tutmuşdur. Dissertasiyanın əsas məzmunu müəllifin "Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmanın formalaşması" adlı monoqrafiyasında və nüfuzlu elmi jurnallarda nəşr edilmiş 40-adək (o cümlədən 9-u xaricdə) elmi tezis və məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, 9 yarımfəsli əhatə edən dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsasları, metodları, mərhələləri, elmi, nəzəri və praktik əhəmiyyəti göstərilmiş, müdafiəyə təqdim olunmuş müddəaları verilmiş, tədqiqatın nəticələrinin tətbiqi və aprobasiyası nəzərə çatdırılmışdır.

Dissertasiyanın I fəsli **"Çar Rusiyasının Azərbaycandakı təhsil siyasətinin bəzi geosiyasi aspektləri"** adlanır. Həmin fəslin birinci yarımfəslində *"Ölkədə həyata keçirilən yeni təhsil siyasəti probleminin qoyuluşu"* araşdırılır. Göstərilir ki, müasir dövrdə keçmiş Rusiya imperiyası daxilində Şimali Azərbaycanın yerini aydınlaşdırmaq, ölkənin həyatında həmin müstəmləkə dövrünün təsiri və praktik nəticələrini müəyyənləşdirmək, Rusiya Federasiyası və Postsovet respublikaları ilə keyfiyyətcə yeni qarşılıqlı sosial-iqtisadi və siyasi-mədəni münasibətlər yaratmaq və inkişaf etdirmək baxımından müasir siyasi-ictimai təfəkkürə əsaslanan tarixi idrak özünün sferasını bütün istiqamətlərdə sürətlə genişləndirir.

Tədqiqat zamanı təsbit edilir ki, sosial-ictimai, bəşəri-demokratik dəyişikliklərlə əlaqədar meydana çıxan siyasi və ictimai-humanitar düşüncə tərzi keçmiş imperiya məkanında yaşamış xalqların tarixi kontekstində Şimali Azərbaycanda tədqiq etdiyimiz dövrdə təhsil sahəsində baş verən mürəkkəb proseslərin əsaslı şəkildə dərindən öyrənilməsini tələb edir. Hər

şeydən əvvəl, hökumətin təhsil siyasətinin,eləcə də bu dövr ictimai-siyasi hərəkatın təşəkkülü və inkişafının öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Məhz fenomenal əhəmiyyətə malik bu genezis təhsil sahəsində baş verən əsaslı proseslərin xarakterini və dinamikasını xeyli dərəcədə şərtləndirmişdir. Tanınmış maarifçi ziyalılarımız A. Bakıxanov, M.F. Axundov, H. Zərdabi, C. Məmmədquluzadə, M. Sabir, R. Əfəndiyev, H. Mahmudbəyov, M. Sidqi, S. Qənizadə, F. Köçərli, M. Mahmudbəyov, Ə. Hüseynzadə, Ə. Ağaoğlu, M.Şahtaxtlı, C. və S. Unsizadələr, Ö. Nemanzadə, N. Nərimanov, M. Rəsulzadə, Ə. Topçubaşov, Ü. Hacıbəyov, A. Səhhət, M. Hadi, F. Ağazadə, H. Sanılı və onlarca digər ədəbiyyat, incəsənət, elm və mədəniyyət xadimlərimizin fəaliyyəti, Azərbaycan hüdudlarını aşan xidmətləri bu dövrlə bağlıdır.

Göstərilən araşdırmalarla müəyyən edilmişdir ki, imperiyanın ucqarlarındakı yerli xalqların intellektual və mənəvi-emosional sferasına təsir göstərmək üçün yeni tipli məktəblərin açılması praktik məqsədlərlə yanaşı, ideoloji məqsədlərə də xidmət göstərmişdir. Bu məktəblər vasitəsilə yeni, Avropa tipli dünyəvi təhsil elementlərinin Azərbaycan xalqının böyüməkdə olan nəslinin müəyyən hissəsi tərəfindən mənimsənilməsi köhnə Şərq təhsil tərəfdarlarının ciddi müqavimətilə paralel getmiş, özünəməxsus ziqzaqları ilə yeni mərhələnin leytmotivini təşkil etmişdir. Tarixi müqayisəli təhlillər göstərir ki, rus və ənənəvi müsəlman məktəbləri arasında bir çox parametrlərdə davam edən konseptual mübarizə dini təhsilin dominantlığını aradan qaldırsa da, faktiki olaraq müsəlman məktəbi platformasında duran çoxluğun qələbəsilə nəticələnmişdir. Buna baxmayaraq o zamanki şəraitdə dünyəvi təhsilin şəbəkələşməsi bir çox yeniliklərə, pozitiv nəticələrə gətirib çıxarmışdır.

I Fəslin ikinci yarımfəslində *"Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı və yeni tipli tarixi-humanitar prosesə transformasiya cəhdləri"*ndən bəhs olunur. Dövrün tarixi – ictimai reallıqlarının təhlili aparılmaqla göstərilir ki, XVIII-XIX əsrin hüdudlarında Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda feodal dövlətlərə parçalanmışdı. Qonşu əraziləri ələ keçirmək uğrunda xanlıqlar arasında ardı-arası kəsilməyən müharibələr, feodallarla ölkə əhalisinin böyük əksəriyyətini təşkil edən kəndlilər arasında ziddiyətlərin güclənməsi, iqtisadi tənəzzül bu dövr Azərbaycanın daxili vəziyyəti üçün səciyyəvi hal idi. Rusiyanın Cənubi Qafqaz barəsindəki işğalçı niyyətləri, Qacar qoşunlarının geopolitik məqsədli yürüşləri vəziyyəti daha da gərginləşdirirdi. Hələ XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin daxilində baş verən ictimai-siyasi hadisələr nəticəsində ölkənin iqtisadi baxımdan zəifləməsindən istifadə edən

Rusiya Qafqazda öz mövqeyini möhkəmlətmək üçün bütün imkanlarını səfərbər etməyə başladı.

Həmin dövrdə Rusiyanın dövlət siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqazın istilasına yönəldilmişdir. Çarizm Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində Rusiya ağalığına nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycanın təbii sərvətləri, xüsusən də faydalı qazıntıları müxtəlif yollarla, o cümlədən elmi araşdırmalar pərdəsi altında gizlənməyə çalışan elmi-casus ekspedisiyalar hesabına rus hökumətinə yaxşı məlum idi.[1]

Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi ilə rus işğalçılarının əli ilə Azərbaycan xalqının dövlət müstəqilliyi ləğv edildi. Azərbaycan xalqını müharibə nəticəsində zorla iki hissəyə bölmək kimi tarixi ədalətsizlik baş verdi. Bu tarixi ədalətsizlik nəticəsində vahid xalq bölündü və onların hər biri bir-birindən fərqli sosial-iqtisadi, siyasi və mədəni inkişaf yolunu seçməyə məcbur oldu.

Tədqiqat zamanı tarixi proseslərə yeni prizmadan yanaşmaqla əsaslandırılır ki, hər hansı milli regionun Rusiya tərəfindən istilası çarizmin qəsbkarlıq məqsədinə xidmət edirdi. Bu məqsədlər qanlı metodlarla həyata keçirilirdi. Qafqaz Rusiya çarizminin diqqətini bir neçə cəhətdən – iqtisadi, sosial-siyasi və hərbi-strateji baxımdan cəlb edirdi.

Çarizm işğal etdiyi Qafqazda, o cümlədən Şimali Azərbaycanda geniş miqyaslı sosial-siyasi məqsədlər güdürdü. Qafqazın, habelə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı ölkə daxilində sosial vəzifələrin həllindən xalqı kənarlaşdırmağı, yalançı vətənpərvərlik atmosferi yaradıb, mütləqiyyət-təhkimçilik quruluşuna qarşı mübarizədən yayındırmağı nəzərdə tuturdu.

Rusiya üçün Qafqaz və Şimali Azərbaycan böyük hərbi-strateji əhəmiyyət kəsb edirdilər. Bu, çarizmin Yaxın və Orta Şərqdə təsirinin güclənməsi, çarizmin ümumavropa siyasəti ilə bağlı idi. Qafqazın istilası Şərq məsələsinin həllinin vacib tərkib hissəsi idi. Qafqazın müstəmləkələşdirilməsi əsasən iki yolla gedirdi: saxta "sülh" və açıq hərbi. Bu istiqamətlərin hər ikisi bir-biri ilə sıx əlaqədə olmaqla paralel gedir, bir-birini müşayət edir və tamamlayırdı. Konkret tarixi şəraitdən asılı olaraq gah bir, gah da digər yol üstünlük təşkil edirdi.

---

[1] Azərbaycan tarixi, 7 cilddə, 4-ci cild (XIX əsr). Bakı: Elm, 2000, s.14

Tarixilik və müasirlik baxımından əhəmiyyəti nəzərə alınaraq tədqiqat zamanı müəyyən edilir ki, Rusiyanın tərkibində Azərbaycan xalqının dünya mədəniyyəti ilə qovuşması prosesi də yeni məzmun kəsb edirdi. İşğalın məntiqi nəticəsi olaraq Rusiyanın təhsil məkanına daxil olmaqla Azərbaycan tədricən Avropa təhsil elementlərinin transformasiyasının həyata keçirildiyi regionlardan biri oldu. Doğrudur, Azərbaycan xalqı Avropa və rus təhsil dəyərlərini Qafqazın digər xristian xalqları ilə müqayisədə çətinliklə qəbul etdi, XIX əsr – XX əsrin əvvəllərində verilən tarixi şansdan ilk onilliklər ərzində çətinliklə bəhrələndi, amma sonrakı dövrlərdə, xüsusilə sovet dövründə ondan ustalıqla faydalanmaqla postsovet dövrü əldə edilmiş tarixi-siyasi şəraitdən də maksimum istifadə edərək regionun lider dövlətinə çevrilmişdir.

Göstərilənlərə istinadən aşağıdakı ümumiləşdirmələr xüsusi qeyd edilir:

- müstəqil, milli, demokratik dövlət quruculuğunun indiki mərhələsində xalqımızın milli-siyasi şüuru və təhsil quruculuğu pedaqoji fikir tariximizi, habelə mövcud dissertasiya üçün seçilmiş tədqiqat dövründə hökumətin yeritdiyi təhsil siyasətini ciddi, sistemli şəkildə öyrənməyi tələb edir;
- son dövrlərə qədər həyata keçirilmiş elmi-tədqiqat işlərinin əksəriyyəti üçün xarakterik olan mövzu darlığı, forma və məzmun arasında uyğunsuzluq, fakt və hadisələrin empirik araşdırılması səciyyəvi olduğundan onların bəziləri daha çox tarixi-pedaqoji oçerklər təəssüratı yaradır, nəticədə təhsilin və pedaqoji fikrin inkişaf tendensiyası haqqında bitkin təsəvvür formalaşdırmır;
- tədqiqat obyektinə daxil olan faktlar, hadisələr və proseslərin, əsasən, vahid məkanda, eyni ictimai-siyasi və iqtisadi şəraitdə, müəyyən edilmiş qanunverici-normativ aktlara müvafiq olaraq həyata keçirilməsinə baxmayaraq, bir sıra spesifik xüsusiyyətlərə malik olmuşlar. Bu xüsusiyyətləri tarixi-müqayisəli yolla aşkara çıxarmaq əvəzinə, problemlər digər regionlarda baş verən proseslərdən ayrıca öyrənilmişdir. Metodologiya baxımından ictimai hadisələrin və proseslərin ayrıca öyrənilməsi təcridçilik əlaməti olaraq yolverilməz hesab edilir. Çünki bu cür yanaşma fakt və fikir qıtlığına səbəb olur, əhatəli elmi-nəzəri, tarixi-ictimai ümumiləşmələr aparmağa imkan vermir. Söz yox ki, həmin tədqiqat əsərləri ilkinlər olmuş və öz dövrünün tələblərinə cavab vermişdir.

Dissertasiyanın ikinci fəsli **"XIX əsrin birinci yarısında Azərbaycanda yeni dövlət təhsil sisteminin təşəkkülünü şərtləndirən amillər"** adlanır. Bu fəslin birinci yarımfəslində *"İstila prosesi: yeni dünyəvi*

*məktəblərin ənənəvi müsəlman məktəbləri ilə qarşılıqlı rəqabəti"* məsələləri tədqiq edilir.

Müqayisəli araşdırmalara əsasən müəyyən edilir ki, Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çar hökuməti bu diyarda öz siyasi və iqtisadi mövqelərinin möhkəmlənməsinə yardım etməyə qadir olan məmurlar odrusu hazırlığını həyata keçirən yeni təhsil sisteminin tətbiq edilməsi zərurəti ilə qarşılaşdı. Çarizmin Şimali Azərbaycandakı məktəb siyasəti ona məxsus bütün mənfi xüsusiyyətləri ilə birlikdə Rusiyanın milli müstəmləkə siyasətinin bir hissəsi idi. Bununla belə o, obyektiv olaraq, gələcəkdə Şimali Azərbaycan əhalisinin yeni, mütərəqqi-dünyəvi yolla təhsil alması üçün zəmin hazırladı. Bu dövr Azərbaycan xalqının maarifçilik tarixində rusdilli məktəblərinin təşkili ilə yanaşı, ənənəvi təhsil formalarının tədricən yenidən qurulması ilə xarakterizə olunur.

Rusiya işğalından sonra ənənəvi Azərbaycan müsəlman mədəniyyəti rus və Avropa mədəniyyəti ilə təmasa girdi. Azərbaycan ictimaiyyətinin qabaqcıl dairələri rus və Avropa həyat və məişət formaları ilə tanış olmağa, rus dilini öyrənməyə, rus mətbuatını oxumağa başladılar. Azərbaycan mədəniyyəti və xüsusən də maarifində ənənəvi forma və məğzin qalması ilə yanaşı yeni meyl və istiqamətlərin əsası qoyuldu. Amma bütün intelektual həyatı öz inhisarına çevirən, xeyli hissəsi fanatik və yüksək dini təhsili olmayan müsəlman ruhaniliyi sekulyarizasiya (dünyəviləşdirmə) prosesinə qarşı qızğın müqavimət göstərirdilər.

Çar hökuməti ayrı-ayrı Qafqaz xalqları və ölkələrini işğal etdiyi zaman imkan düşdükcə yerli əhalinin aşağı təbəqədən olan hissəsi arasında rus təhsilini yaymaq istəyirdi. Çox vaxt Rusiyanın "maarifləşdirici fəaliyyəti" xristian dəyərlərinin yayılması ilə başlayırdı.

Xristianlığın zorla yayılması cəhdləri işğalın ilk dövrlərində Qafqazda gözlənilən səmərəni vermirdi. Bunun əsas səbəblərindən biri yeni dinin bu xalqlar arasında təbliğatçılarının digər xalqların – rus və gürcü xalqlarının ruhani nümayəndələri olması idi. Ona görə də rus hakimiyyət orqanlarında belə bir inam hasil oldu ki, missioner kadrları yerli əhalinin içindən hazırlamaq lazımdır.

Dissertasiyada problemin tədqiqi zamanı regionun təhsil həyatı haqqında daha dolğun mənzərənin təmin edilməsi üçün imperiyanın digər regionları, xüsusilə müsəlman regionları ilə müqayisəli təhlilinə üstünlük verilməsi təqdirəlayiqdir.

Bu baxımdan yeri gəlmişkən qeyd edək ki, xristianlığın yayılması ilə bağlı tədbirlər digər milli ucqarlarda, məsələn, Pribaltika xalqları arasında da

həyata keçirilirdi. Burada əsasən rus pravoslavlığı təbliğ olunurdu. XIX əsrin 40-cı illərindən başlayaraq aparılan işlər nəticəsində yerlilər lüteran kilsəsindən pravoslava keçməyə təhrik olunurdular. Burada onların maddi cəhətdən maraqlandırma üsulları geniş tətbiq olunurdu. Yerli rus məmurları, xüsusən pravoslav dindarları belə keçidə yaxından kömək edirdilər.

XVIII əsrin sonu –XIX əsrin birinci rübündə çar hökuməti Qafqazda Rusiyanın mövqelərini möhkəmləndirməyə istiqamətlənən bir neçə tədbir də həyata keçirirdi ki, bu tədbirlərdən biri yerlilər içərisindən ruslara sadiq məmurlar hazırlamaq idi.

Çoxsaylı müharibələr meydanı olan Qafqazda təhsil tarixi eyni zamanda yerli xalqların milli oyanış tarixi olmuşdur. Rusların hələ Gürcüstanı idarə etməyə başladıqları zamanlardan etibarən hökumət gürcülər arasında rus təhsil ənənələrini yaymağa üstünlük verirdilər.

Tarixi pedaqoji tədqiqatlara istinadən müəyyən edilir ki, dini məktəblərin dünyəvi, təhsilverici əhəmiyyətinin səmərəsi kifayət qədər az idi. Onlar məscidlərin və uşaqların valideynlərinin hesabına saxlanılırdı. Geniş şəkildə tətbiq edilən fiziki cəza, vahid tədris sisteminin olmaması, ağır məktəb rejimi, müəllimlərin azlığı və savadsızlığı, yararsız dərs şəraiti şagirdlərin fiziki və əqli inkişafına mənfi təsir göstərirdi. Ruhanilər yeni əlifba yaradılmasına da hər vəchlə qarşı çıxırdılar. Ərəb dili vasitəsilə öz təsirlərini saxlamaq istəyən mollalar ana dili və doğma ədəbiyyatın zəruriliyi haqqında düşünmürdülər. Dindarların bir çoxu Qafqaz xalqlarının rus və qeyri-müsəlman xalqları ilə mədəni əlaqələrinin inkişafına hər vəchlə mane olur, onlar arasında sıx münasibətlərin olmasına qarşı çıxırdılar. Ölkədə təşəkkül tapmaqda olan yeni təhsil siyasətinin başlıca məqsədi olaraq dissertasiyada müəyyən edilir ki, bunlar o zamankı sosial-iqtisadi və mənəvi-psixoloji duruma müvafiq olub çarizmin təhsil siyasətinə ikili standartlarla yanaşmasından qaynaqlanırdı.

Dissertasiyada belə bir yekun qənaətə gəlinir ki, Sankt-Peterburq və Tiflis arasında aparılan çoxsaylı yazışmalar, müraciətlər, fikir mübadilələri həm Cənubi Qafqaz xalqlarını itaətdə saxlamaq, həm də Rusiyanın xeyirxah missioner obrazını yaratmaq, regionun müsəlman ölkələri ilə ənənəvi yaxınlığını getdikcə zəiflətməklə ümumimperiya maraqlarını formalaşdırmaqdan ibarət idi.

Bütün Rusiya üçün qəbul olunmuş 8 dekabr 1828-ci il nizamnaməsinin məqsədi aşağı və orta tipli tədris müəssisələrinin idarə olunması və fəaliyyəti sahəsində vahid qaydalar tətbiq etməkdən ibarət idi. Bu nizamnamə ilə yanaşı çar hökuməti lazım bildi ki, altı tədris dairəsindən

dördündə unifikasiya prosesinə zəmin yaratmaq məqsədi ilə Cənubi Qafqaz məktəblərində yerli şərait və tələbatı nəzərə alaraq xüsusi əsasnamə təsdiq etmək lazımdır.

Hökumət nəzərə alırdı ki, Cənubi Qafqaz Rusiya imperiyasının "nisbətən gənc əyalətidir", o maarif sahəsində xüsusi qayğı tələb edir. Buna görə də imperiya öz maarifçilik aksiyasına müəyyən dərəcədə xüsusiçilik xarakteri verməyi üstün tuturdu. Bununla belə digər hallarda əsasnamədə nəzərdə tutulmayan məsələlərdə Cənubi Qafqaz məktəblərinə 8 dekabr 1828-ci ildə qəbul olunmuş, gimnaziyalar, qəza və prixod məktəbləri üçün nəzərdə tutulmuş nizamnaməsini əldə rəhbər tutmaq tövsiyə edildi[1]

Cənubi Qafqaz məktəbləri haqqında 1829-cu il tarixli nizamnaməyə əsasən əyalətdə bir gimnaziya (Tiflisdə) və 20 qəza məktəbi təsis edilməsi nəzərdə tutulurdu ki, bu da yuxarıda göstərilən siyasətin məntiqi davamı idi. “Nizamnaməyə görə bu məktəblərin Gəncədə, Şuşada, Nuxada, Şamaxıda, Quba, Bakı, Naxçıvan və Ordubad şəhərlərində, Qazax distansiyasında açılması təsdiq edildi”[2].

Tədqiqat zamanı bu məktəblərin açılması şəraiti, şərtləri, fəaliyyəti imperiyanın milli ucqarlarda apardığı təhsil siyasəti kontekstində araşdırılmışdır. Məsələn, Ordubadda qəza məktəbinin açılmamasının bir səbəbi "orada sakin olanların kifayət qədər olmaması", Qazax distansiyasında isə yerli dilləri bilən müəllim kadrlarının, məktəb üçün müvafiq binanın və kifayət qədər şagird heyətinin olmaması ilə izah edilirdi. Halbuki, Naxçıvanda bəzi adamlar yeni məktəblərə, rus dilini öyrənməyə böyük həvəs göstərirdilər. Bir çox vəzifəli şəxslər artıq rus dilini öyrənməyə başlamışdılar. Belə adamlar uşaqların həm rus dili, həm də ictimai həyatda zəruri olan ibtidai bilik öyrənmək üçün şəhərdə rus məktəbləri təsis etməyi xahiş edirdilər[3]. Göründüyü kimi əhalinin yeni tipli təhsilə marağının ciddiliyini nəzərə alan çar bürokratiyası tərəfindən 1835-ci il 12 may əsasnaməsində Şimali Azərbaycanda artıq mövcud olan qəza məktəblərini təkmilləşdirməyi, nəzərdə tutulan digər qəza məktəblərini açmağı da gündəmdə saxlayırdı. Belə məktəblərdə tədris işini aparacaq rus ziyalılarına xüsusi maraq göstərilməsi də çarizmin strateji niyyətlərindən irəli gəlirdi. 1835-ci il əsasnaməsi rəsmi

---

[1]Сборник постановлений по Министерству народного просвещения. т.1, СПб., Тип. Императорской Академии Наук, 1864, ст. 1599

[2] H.Əhmədov. XIX əsr Azərbaycan məktəbi, Bakı 2006, s.65

[3]Статистическое описание Нахичеванской провинции, сост.В.Г. С.-Петербург, 1883, ст.41-42

hakim dairələr tərəfindən Cənubi Qafqaz kimi maraqlı və vacib tərəfə, regiona yüksək qəyyumluğa istiqamətlənmiş tədbir kimi qiymətləndirilirdi. Təsis edilən rus məktəbləri, onların fikrincə, "şərqdə rus silahının sonuncu və ən uzaq qəniməti idi"[1]

İlk dövrlərdə Şimali Azərbaycanın qəza məktəblərində başlıca olaraq rus məmurlarının və digər millətlərin uşaqları təhsil alırdılar. Dövlət xidmətinə daxil olmağa yol açan rus təhsilinin vacibliyi, ən başlıcası isə iqtisadi tələbat yerli əhalidən olan uşaqların rus məktəblərinə daxil olmasına maraq yaratdı. Hökumət orqanları azərbaycanlıları məktəbə cəlb etmək üçün müxtəlif maraqlandırıcı tədbirlərdən də istifadə edirdi.

Beləliklə, XIX əsrin 30-cu illərindən başlayaraq Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda rus təhsil sistemi tədricən yayılmağa başlamışdır.

Milli ucqarlarda uşaqların qəza məktəblərinə cəlb edilməsilə əlaqədar Kazanda fars və tatar dillərində çap olunmuş elanlar bu dillərdə tədris aparılan məktəblərdə, eləcə də Qafqazın müsəlman əhalisi arasında da yayılmışdı[2].

Dissertasiyada haqlı olaraq belə bir nəticəyə gəlinir ki, Şimali Azərbaycanda rus təhsil sisteminin özünə yer etməsi əhalinin yeni tipli təhsilə marağı ilə üst-üstə düşsə də bu prosesin geniş şəbəkələşməsində Çarizmin vaxt uzatması, maarifçilik işinin sürətlənməsinə hürkək yanaşması Cənub ərazilərinə hələ də ictimai etimadsızlığın ifadəsi idi.

Dissertasiyada ən çox diqqət yetirilən məsələlərdən biri də sistemləşməkdə olan rusdilli təhsil müəssisələrində çalışacaq milli müəllim kadrlarının hazırlığına münasibət idi. Birincisi, bu məktəblər əsasən Rusiya imperiyasının maarif nazirliyi tərəfindən göndərilən müəllimlərlə təmin edilirdi, ikincisi, əgər yerlərdə bu vəzifəni tutmağa qabil şəxslər olardısa, onlar Tiflis gimnaziyası şurasında təxmini yoxlamadan keçirilirdilər.

Dövlət məktəbi müəllimlərinin hüquqları Rusiyanın daxili quberniyalarındakı müvafiq məktəb müəllimlərinin malik olduqları hüquqlara bərabər idi. Lakin çarizm öz mövqeyini möhkəmləndirmək üçün Şimali Azərbaycanda və Qafqazda çalışan müəllimlərə bəzi imtiyazlar verirdi. Rusiyadan Cənubi Qafqaza göndərilən elm-fənn müəllimlərinə yol

---

[1] Сборник постановлений по Министерству народного просвещения. т.1, СПб., Тип. Императорской Академии Наук, 1864, ст. 727

[2] Paşaev A.X. Очерки истории начального образования на Кавказе в XIX – начале XX веков. Баку: Изд-во АПИ, 1991, с.48

pulundan əlavə, bir illik əmək haqqı qədər birdəfəlik vəsait ödənilirdi. Şimali Azərbaycan qəza məktəblərində işləyən müəllimlər özləri və ya ailələri 15 il əvəzinə 10 il xidmət etdikdən sonra dövlət təqaüdü ala bilərdilər. Hərçənd nəzərə almaq lazımdır ki, Rusiyadan çağırılmış müəllimlərin tərifli attestasiyalarına və qulluq siyahılarına baxmayaraq onların heç də hamısı bu məktəblər üçün yararlı deyildirlər. Bu və ya digər təhsil dairəsi, təbii olaraq, yaxşı kadrları özlərində saxlayır, «Cənubi Qafqaza isə, necə deyərlər, çıxdaş edilmiş müəllimləri göndərirdilər ki, bunlar da xeyirdən çox zərər verirdilər»[1] Bu müəllimlər yerli şəraiti, əhalinin dilini, adət və ənənələrini, dünyagörüşünü bilmədiklərindən xalqa təsir edə, onun içərisində nüfuz qazana bilmirdilər. Bu mənada müxtəlif layihələr, təlimatlar sanki vaxt uzatmaqdan başqa bir şey olmayıb prosesi ləngitmək məqsədi güdürdü. Təhsil tarixinə senator Qanın adı ilə düşən layihə də ərazinin baş hakimi baron Q.V.Rozenlə senator Qan arasında "təhsil islahatçılığı" naminə mübarizədən çox bir tərəfdən Şimali Azərbaycanda rusdilli təhsiin şəbəkələşdirilməsini gecikdirməklə rus mənşəli məmurların təbəqələşməsini təmin etmək, digər tərəfdən 1840 – 1841-ci illərdə keçirilmiş inzibati məhkəmə islahatları ilə Şimali Azərbaycanın mülkədar, ağa və bəylərini öz torpaqlarından məhrum etməklə nüfuzlu, milli məmur təbəqəsinin əzilməsi məqsədi güdürdü.

Tədqiqatdan göründüyü kimi, XIX əsrin birinci yarısında azərbaycanda yeni dövlət təhsil sisteminin təşəkkülünü şərtləndirən başlica amillər istila prosesinin məntiqi nəticəsi olaraq yeni dünyəvi məktəblərin ənənəvi müsəlman məktəbləri ilə qarşiliqli inkişafindan çox, qarşiliqli ziddiyyətlərindən doğan üzücü rəqabətə söykənirdi.

İkinci yarımfəsildə *"Yeni inzibati idarə formasının təhsilin inkişafına təsiri"* araşdırılır. 1844-cü ilin axırlarında bütün Qafqazın həyatında elə bir hadisə oldu ki, bu, çoxmillətli regionun iqtisadi və mədəni inkişafında böyük rol oynadı. Şimallı-Cənublu bütün Qafqazı əhatə edən Qafqaz canişinliyi yaradıldı. Dissertasiyada regional təhsil siyasətinin formalaşmasında bu idarənin fəaliyyətinin əhatəli təhlili aparılmaqla xüsusi qeyd edilir ki, 27 noyabr 1844-cü il tarixli fərman ilə qraf M.S.Voronsov Qafqaz canişini və xüsusi Qafqaz korpusunun baş komandanı təyin edildi. Beləliklə, bütün hakimiyyət, həyatın bütün sahələri, o cümlədən xalq təhsili Qafqaz canişini

---

[1] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 2000, s.38

qraf Voronsovun əlində cəmləşdirildi. Onun göstərişi ilə yeni sənədlərin işlənib hazırlanması, Qafqazda bütün tədris işinin maliyyələşməsi, idarə olunması və genişlənməsi reqlamentləşdirildi.

İmperiyanın bu dövr milli ucqarlara, xüsusilə Qafqaza dair çoxşaxəli siyasətinin uğurla formalaşmasında qraf M.S.Voronsovun rolunun tədqiqatda geniş verilməsi həm də təhsil siyasətinin mahiyyətinin açılması baxımından əhəmiyyətlidir. Tədqiqat zamanı göstərilir ki, canişinin təşəbbüsü ilə Rusiya ali məktəblərində diyar üçün kadrlar hazırlığı məsələsi dəfələrlə müzakirə olunmuş və hər dəfə ən yaxşı gənclərin seçilməsi variantı, ölkənin universitetlərində təhsil aldığı zaman onların üzərində nəzarət məsələsi də ön plana çəkilmişdi.

Tədqiqatda belə bir məsələyə xüsusi diqqət yetirilir ki, Rus qəza məktəblərinin açılmasına, onların bir neçəsində yerli dillərin, o cümlədən Azərbaycan dilinin tədris fənni kimi aparılmasına baxmayaraq, azərbaycanlılar yenə də öz uşaqlarını bu məktəblərə həvəslə göndərmirdilər ki, burada əsas səbəblərdən biri dindarların güclü təsiri idi.

18 aprel 1847-ci ildə I Nikolay "Tiflis müsəlman Əli məktəbi"nin açılması haqqında layihəni təsdiq etdi. M.S.Voronsov öz düşünülmüş siyasətinin effektliyini hiss edib sünnülər üçün də tezliklə məktəb açılması məsələsini qaldırdı və belə bir məktəb "Tiflis müsəlman Ömər məktəbi" adı altında 1849-cu ildə Tiflisdə açıldı.

Cənubi Qafqazda bu tipli ilk tədris müəssisəsləri olan Tiflis müsəlman məktəbləri rus təhsilinin nəinki Gürcüstanda, həm də Şimali Azərbaycanda yayılmasında müəyyən rol oynamışdı. Sonra Şimali Azərbaycan əhalisinin arzusunu nəzərə alan Qafqaz canişini M.S.Voronsov qısa müddət ərzində Şimali Azərbaycanda daha bir neçə məktəbinin açılmasını nəzərdə tuturdu.

Tiflis müsəlman məktəblərinin azərbaycanlıların şüuruna və dünya-görüşünə müsbət təsiri Qafqaz canişinliyini bu sahədə fəaliyyətini davam etdirməyə stimullaşdırdı. Bir-birinin ardınca Azərbaycanın müxtəlif şəhərlərində «müsəlman» məktəbləri təşkil edildi.

Müsəlman məktəblərinin məhdud cəhətlərinə baxmayaraq, bu məktəblər nisbətən irəliyə doğru atılmış həm mütərəqqi, həm də taktiki addım idi. Burada tədris edilən ümumtəhsil fənləri həyati əhəmiyyət kəsb edirdi. Qəza məktəbləri kimi bu məktəblərin da meydana gəlməsi və oraya ümumtəhsil fənlərinin daxil edilməsi məktəblərin gələcək inkişafına müsbət təsir etməklə azərbaycanlı gənclərin gimnaziyalarda orta təhsil almalarına xeyli kömək edirdi.

Tədqiqatda problemin belə bir cəhəti xüsusi qeyd edilir ki, Azərbaycandakı müsəlman məktəbləri öz tarixi missiyasını müəyyən qədər yerinə yetirdi. Bu məktəblərin sonralar ictimai-pedaqoji mühitdə daha da güclənməməsi həm də ruslaşdırma siyasətinin gücləndirilməsi ilə bağlı idi.

Çarizmin Şimali Azərbaycanda yürütdüyü təhsil siyasətinin ən mühüm istiqamətlərindən biri digər milli ucqarlarda olduğu kimi xristianlığın yayılması, Rusiya ruhunun təlqin edilməsi, mütləqiyyətçilik ideologiyasının aşılanması idi. Dünyəvi təhsil pərdəsi altında böyük dövlətçilik ideologiyası, rus mənəviyyatı zehinlərə yeridilir, milli mentalitetin formalaşmasına yeni məzmun verilirdi. Tədqiqat zamanı bu məsələlər müqayisəli təhlil edilməklə müasir geosiyasi reallıqlara rəğmən ciddi paralellər aparılmışdı.

Dissertasiyanın bu fəsli Çarizmin təhsillə bağlı milli ucqarlarda həyata keçirdiyi ikili standartların əsl mahiyyətini açmaqla xalqımızın yeni tipli maarifçi tendensiyalara göstərdikləri marağı yeni prizmadan dəyərləndirmişdir. Göstərilmişdir ki, Rus məktəbləri vasitəsilə Şimali Azərbaycan mühitinə gətirilən Qərb sivilizasiyası elementlərini «qəbul etmək» üçün ayrılan vaxt müəyyən çərçivələrlə məhdudlaşdırılmadığından xalqımızın ona adaptasiyası, uyğunlaşması prosesi uzun sürdü və qonşu xristian xalqlarla müqayisədə ondan az bəhrələnildi. Çarizm əslində bu "gecikmədə" maraqlı idi. Avroasiya sivilizasiyasına adaptasiya Rusiyanın müsəlman əhalisinin milli mentalitetinin yeni geopolitik reallığa rəğmən formalaşmasında "milli ucqarlardakı özgə"lərin gecikməsi strateji niyyət idi. Bu da Rusiyanın qeyri-rus müsəlman xalqlarının yeni tipli milli maarifçiliyinin tarixi təşəkkülünə öz təsirini göstərdi.

Dissertasiya işinin üçüncü fəsli **"XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda Dövlət təhsil sisteminin inkişaf tendensiyası"** adlanır. Bu fəslin birinci yarımfəslində *"Tədris müəssisələrinin idarə edilməsində regional xüsusiyyətlərin nəzərə alınması"* araşdırılarkən belə nəticəyə gəlinir ki, XIX yüzilliyin ikinci yarısında inkişaf etməkdə olan kapitalist iqtisadiyyatının ixtisaslı fəhlələrə sənayenin müxtəlif sahələrində texnikaya xidmət göstərməyi, kənd təsərrüfatını səmərəli surətdə qurmağı və ən yeni nəqliyyat vasitələrini idarə etməyi bacaran təhsilli mütəxəssislərə tələbatı Şimali Azərbaycanda ümumtəhsil orta və peşə məktəblərinin sayının müəyyən qədər artmasına, təhsil müəssisələrinin meydana çıxmasına onların təhsil səviyyəsinin yüksəlməsinə səbəb oldu.

XIX əsrin ikinci yarısında çarizmin Qafqazda hökmranlığı daha da möhkəmləndi və bununla əlaqədar olaraq xalq maarifi sistemindəki əvvəlki yerliçilik və müstəsnalıq tədricən aradan qaldırıldı. Cənubi Qafqaz məktəb-

lərinin XIX əsrin 1870-ci illərində imperiya üzrə bir sıra məktəb nizamnamələrinin, o cümlədən, gimnaziyalar və progimnaziyaların 30 iyul 1871-ci il, real məktəblərini və şəhər məktəblərinin 15 may 1872-ci il nizamnamələrinin təsdiq olunması ilə Cənubi Qafqazda xüsusi məktəb nizamnamələri qüvvədən düşdü. Beləliklə, bütün Qafqaz ilə bərabər Şimali Azərbaycandakı dünyəvi məktəblər də regional spesifikliyini qismən qorumaqla Rusiya imperiyasındakı məktəblərə daha da uyğunlaşdırıldı, məktəblər bilavasitə imperiya daxilindəki nizamnamələrlə idarə edilməyə sövq edildi. Çarizmin milli ucqarlarda həyata keçirdiyi təhsil siyasətinin ən mühüm tərkib hissəsi onun idarəçiliyinin xüsusi formasının yaradılması idi. Bu baxımdan Qafqaz Tədris Dairəsinin fəaliyyətinin təhlili xüsusilə diqqəti cəlb edir.

1848-ci ildə hökumət «Qafqazda müstəqil tədris dairəsi yaratmaq» barədə əsasnamə və ştatı təsdiq edərkən, üç şərtə əməl edilməsini vacib hesab etdi. Bunlar, Əsasnamə və ştat cədvəlinin üçilliyə nəzərə alınmasını, bu zaman dövlət büdcəsindən çox, öz hesabına toplanmış vəsaitlərdən istifadəyə üstünlük verilməsini, nəhayət, bundan sonra növbəti mərhələdə fəaliyyət üçün canişinin əlavə təqdimatının vacibliyini nəzərdə tuturdu.

Tədris dairəsinin əsasnaməsi və ştatı çar tərəfindən təsdiq edilən zaman Qafqaz canişini qarşısında qoyulan üç şərt bundan ibarət idi. Bunun təsdiqi və həyata keçirilməsi ilə Qafqazda rus xalq təhsili sisteminin inkişafında, fikrimizcə, yeni dövr başlandı.

Qafqaz tədris dairəsinə qəyyum təyin olunmuş V.N.Semyonov imperiyanın digər tədris dairələri müdirlərinin istifadə etdikləri bütün hüquqlardan istifadə edirdi. Lakin əgər onlar öz təqdimatları ilə birbaşa xalq maarifi nazirinə müraciət edirdilərsə, Semyonov Qafqaz canişininə tabe idi. Bu, Qafqazın inzibati-ərazi vahidinə ayrılması, canişinin bilavasitə çar tərəfindən təyin edilib, ancaq çara tabe olması, Qafqazdakı bütün işlərə ancaq canişinin hakim və cavabdeh olması ilə bağlı idi.

1848-ci il Əsasnaməsinin ən mühüm xüsusiyyəti həm ümumdövlət, həm də yerli milli maraqları nəzərə almasıdır. Orada rus dilinin birinci zəruri alət olduğunu və onun daha güclü tədrisi nəzərdə tutulurdu. Bütün təlim prosesi onun üzərində qurulmaqla birinci, yerli əhali arasında hökumətə sadiq kadrların hazırlığı; ikinci, tədris müəssisələrində yerli xalqların dillərinin tədris olunması da hədəf olaraq müəyyən edilirdi.

Qafqaz tədris dairəsinin 1848 – 1852-ci illəri əhatə edən sınaq müddəti məhz yuxarıda göstərilən geosiyasi niyyəti nəzərdə tuturdu. Tədqiqat zamanı həmçinin müəyyən edilmişdir ki, Qafqaz dairəsindəki tədris müəssisələrinin quruluşunu mərkəzi quberniyadakılara uyğun qurmaqla

Çarizm Qafqaz və Cənubi Qafqazda xalq təhsili sisteminin gələcək unifikasiyasını təmin etməyi nəzərdə tuturdu. Bu strateji niyyət xeyli müddət ərzində dəyişilməz qalmışdır. Bütün bu dövr ərzində Qafqaz tədris idarəsinin bütün işi Qafqazda, o cümlədən Şimali Azərbaycanda məktəb siyasətini Rusiyadakına yaxınlaşdırmaqdan ibarət olmuşdur. Demək lazımdır ki, prinsip etibarilə bu siyasət imperiya maraqlarına, ruslaşdırma və xristianlaşdırma məqsədlərinə, müstəmləkəçilik niyyətlərinə yönələn bir siyasət idi. Qafqaz məktəblərinin yeniyetmələrinə, xüsusən gənclərinə elə bir təhsil hazırlığı vermək nəzərdə tutulmuşdur ki, onlar sonra öz təhsillərini imperiyanın ali tədris müəssisələrində davam etdirə bilsinlər. Əgər o dövrdə Qafqazın özünün ali məktəbinin olmamasını nəzərə alsaq, hökumətin xalq təhsilini unifikasiya niyyətini təbii və qanunauyğun hesab etmək lazımdır. Hökumətin məktəb siyasətinin əsasına xalq təhsili sisteminin vahidliyi və ardıcıllığı prinsipini qoyması Rusiya xalqlarının iqtisadi və mənəvi yaxınlaşmasına səbəb olmaqla imperiyanın mərkəzi quberniyaları ilə ucqarların arasındakı təcrid olunmanı yavaş-yavaş aradan götürürdü. Bu tendensiya XIX əsrin ikinci yarısında və sonrakı illərdə də davam etdirildi.

Yeni əsasnaməyə görə Qafqazda tamamilə yeni tipli tədris müəssisələrinin açılması nəzərdə tutulurdu: bunlara 4 sinifli ali–ibtidai məktəblər aid idi. Belə məktəblərin birincisi quberniya şəhəri olan Şamaxıda mövcud qəza məktəbinin bazasında quberniyanın «sakinlərinə ali-ibtidai təhsil vermək üçün»[1] açılmışdı. Onun nəzdində 50 nəfərlik «nəcib pansion» təsis olunmuşdur ki, onlardan 25 nəfəri dövlət hesabına (20 nəfəri imtiyazlı təbəqələrin balaları, 5-i isə rus məmurlarının uşaqları üçün) nəzərdə tutulurdu. Qalan 25 nəfəri isə hər il 90 gümüş rubl, həm də məktəbə qəbul vaxtı bir dəfəlik 30 gümüş rubl dövlətə keçirməklə bu məktəb də oxuya bilərdilər.[2]

Qəza məktəblərindən fərqli olaraq 4 sinifli ali-ibtidai məktəbə və onun nəzdindəki pansiona xüsusi nəzarətçi rəhbərlik edirdi. Bu məktəb bütün təbəqələrdən olan uşaqlar daxil ola bilərdilər. Təlim burada qismən pulsuz olsa da Qafqaz canişini tədris dairəsinin təqdimatına görə oxumaq istəyən uşaqlara təhsil haqqı təyin edirdi.

---

[1] H.Əhmədov. XIX əsr Azərbaycan məktəbi, Bakı 2006, s.83

[2] Сборник постановлений по Министерству народного просвещения. т.1, СПб., Тип. Императорской Академии Наук, 1864, 1887 ст. – ст. 1256

Dissertasiyada haqlı olaraq belə fikir ümumiləşdirilir ki, hər dəfə yeni nizamnamə qəbul edilərkən, «yerli şəraitin nəzərə alınması» şərti əsas müddəa kimi irəli sürülürdü. Lakin əslində yerli şərait geniş xalq kütləsinin mənafeyi üçün deyil, hökumətin siyasəti naminə əsas götürülürdü.

Beləliklə, dövr üçün müvəqqəti tətbiq edilən məktəb nizamnamələri, xalqın gözünü pərdələməkdən, hökumətin üzdə özünü «maarifpərvər» kimi göstərməsindən başqa bir şey deyildi.

XIX əsrin birinci yarısında və ortalarında yerlərdə təhsil işinin gedişi zamanı bir çox hallarda çətinliklərlə üz-üzə gələn hökumət məktəb təhsili sistemində tez-tez dəyişikliklər aparırdı. Məhz bunun nəticəsi idi ki, xalq maarifi sahəsində əmələ gələn bəzi mütərəqqi meyllərdən və nəzərə çarpacaq fəallıqdan sonra bütöv bir süstlük və durğunluq dövrü başlayırdı.

Rusiya imperiyasının qərb quberniyalarında, Polşa çarlığında baş verən proseslər hökuməti yerli əhalinin əqli, dini və məişət tələblərini Rusiyanın ümumi mənəvi mənafeyinə uyğunlaşdırmağa, Avropa-Rusiya təhsil elementlərini bu diyarda tədricən, həm də israrla tətbiq etməyə sövq edirdi ki, bütün bunlar Qafqaza münasibətdə daha sərt həyata keçirilirdi.

Qafqaz tədris dairəsinin 1857-ci ildə başa çatmış növbəti müddəti bu baxımdan sonuncu oldu. 1860-cı illəri əhatə edən Qafqaz xalqlarının azadlıq mübarizəsi prosesə tamamilə yeni məzmun verdi. Beləliklə, tədris dairəsinin ləğvi, tədris müəssisələrinin quberniya və vilayət mülkü qubernator və rəislərinə tabe edilməsi, daxili intizamın zəifləməsi, pedaqoji ictimaiyyətin pərakəndəliyi və s. bu kimi amillər birlikdə şagirdlərin müvəffəqiyyəti və tərbiyə işlərinin keyfiyyətinin aşağı düşməsinə səbəb oldu.

Regiondaki ictimai-siyasi durumu nəzərə alaraq Çar I Nikolay oğlu Mixaili Qafqaz canişini təyin etməsi ilə buradakı təhsil siyasəti də kəskinləşdi.

Dissertasiyada diqqət yetirilən mühüm məqamlardan biri də müsəlman ruhaniliyinə və dini təhsilə münasibət idi.

Qafqaz canişini Mixail Nikolayeviç öz doğma qardaşına dövlət şurasının sədri Konstantin Nikolayeviçə, 16 iyul 1871-ci il tarixli məktubunda yazırdı: "İmperiyanın daxili quberniyalarında olan müsəlman əhalisinin nisbəti Cənubi Qafqaz diyarındakı ilə müqayisə edilə bilməz: daxili quberniyalarda o, əhalinin az hissəsini təşkil edir və hər tərəfdən rus pravoslav əhali ilə əhatə olunub; burada isə onlar əhalinin çox hissəsini təşkil etməklə, iki müsəlman ölkəsinin yanında olmaqla 60 il ərzində dini fanatizm onların əsas qüvvəsi olduğu üçün bizimlə mübarizə aparmışlar. Məhz buna görə də daxili quberniyalarda müsəlman dini ruhanilərinin

quruluşu məsələsi, bir tərəfdən vacib deyilsə, digər tərəfdən, həm də vacib siyasi əhəmiyyət kəsb etmir. Burada isə əksinə, bu məsələ ən vacib dövlət məsələlərindən biri olmaqla, hərəkət və qərarlarda xüsusi ehtiyatlılıq tələb edir ki, mənə tapşırılmış diyarın bütün hissələri üçün müsəlman ruhaniliyinin quruluşu haqqında qaydaların layihəsini bir dəfəyə Sizə təqdim etməyə cürət etmədim”[1]

Tarixi pedaqoji mənbələrin təhlilinə istinadən dissertasiyada müəyyən edilir ki, hökumət Cənubi Qafqaz ruhani idarəsinə elə bir quruluş vermək istəyirdi ki, bu bir tərəfdən sakinlərə, onların dini etiqadlarına hökumətin heç cür qarışmayacağını göstərsin, digər tərəfdən, buradakı rəhbərliyə ruhani şəxslər üzərində sərt nəzarət etməklə onları hökumətdən asılı vəziyyətdə daha çox saxlamağa lazımlığını vurğulasın. Müsəlman ruhaniliyinin Cənubi Qafqazdakı belə quruluşu bu diyardakı bənzərsiz şəraitlə bağlı idi. Dövlət şurasının 5 aprel 1872-ci il tarixli qərarı ilə Cənubi Qafqaz müsəlman ruhanilərinin idarə olunma qaydasının layihəsi təsdiq edilib qanun qüvvəsinə mindi.

Bu prosesin məntiqi nəticəsi olaraq dissertasiyada belə bir qənaətə gəlinir ki, İmperiya milli ucqarlarda dini və dünyəvi təhsili nəzarətdə saxlamaqla milli azlıqların maariflənməsindən daha çox, özünün missioner obrazını qoruyurdu.

Yalnız 1867-ci ildə bərpa edilən Qafqaz tədris dairəsini əhatə edən tədris müəssisələri 5 direksiya arasında bölünmüşdü. Dissertasiyada belə bir məntiqi nəticə ifadə edilir ki, gənclərin yalnız ibtidai və orta təhsilini əhatə edən bu idarəetmə forması Şimali Azərbaycan şəhərlərində ali təhsil müəssisələrinin açılmasını nəinki lüzum bilmirdi, heç müzakirə mövzusuna çevirmirdi. Hələ o dövrdə məktəb həyatında əmələ gələn canlanmadan, ictimai-maarifçi prosesin geniş vüsət almasından bəhs edən L.Modzalevski yazırdı: "Bu dövrdə ölkənin təhsil işində ümumi canlanma o qədər böyük idi ki, Şuşa, Aleksandropol, Zaqatala, Poti, Ahalkələk, Raça və başqa yerlərdən Qafqaz canişininin yanına deputatlar heyəti gəlir və ərizələr göndərərək yeni məktəblər açmağı tələb edirdilər: hətta kəndli icmaları da bu işə qoşulur və bu ali faydalı iş üçün xeyli ianə toplayırdılar"[2].

---

[1] Эсадзе С. Историческая записка об управлении Кавказом. В 2-х томах. Тифлис: Тип. Главного управления наместника Кавказского, 1907, т.1, 616 с. т.2, ст.165

[2] Модзалевский Л.Н. Ход учебного дела на Кавказе с 1802 по 1880 год. Тифлис: Тип. А.А.Михельсона, 1880, ст.50

Göründüyü kimi XIX əsrin 60-cı illərində vüsət alan ictimai hərəkat məktəb həyatının canlanmasına güclü təkan verməklə cənubi Qafqaza da öz təsirini göstərirdi. Akademik Hüseyn Əhmədov yazırdı ki, "Cənubi Qafqazda dövlət məktəblərinin üç əsas növü üzrə (gimnaziya, progimnaziya, qəza və ibtidai məktəblər) şagirdlərin sayı 2652 nəfərdən 9.163 nəfərə çatmışdır. B artım ibtidai təhsil sahəsində özünü daha çox göstərirdi. Əgər Zaqafqaziya orta məktəblərində oxuyan şagirdlərin ümumi sayı göstərilən 10 il ərzində 3 dəfə artmışdırsa, ibtidai məktəb şagirdlərinin sayı 10 dəfədən çox artmışdı"[1].

Yeri gəlmişkən, bu dövrdə, yəni XIX əsrin ikinci yarısında İrəvan məktəbi və maarifi də ümumimperiya modeli kontekstində özünəməxsus inkişaf xüsusiyyətləri ilə seçilirdi. Burada ən diqqəti cəlb edən daha müasir təhsil metodlarına əsaslanan üsuli-cədid məktəblərinin güclənməsi idi. Yeni üsula (səs üsuluna) görə təlim yenə də əlifbadan başlanırdı. Lakin buna baxmayaraq, yeni üsul ilə hərf söz kimi deyil, səs kimi tələffüz edilir və sonra ruslarda olduğu kimi əlifba üzrə davam edirdi. Bu üsul təlimi əsaslandırır, bir və ya bir neçə ay ərzində oxuyub yazmağı öyrənməyə imkan verirdi.

Görkəmli Azərbaycan mütəfəkkiri, o zamanlar İrəvan gimnaziyasında müəllim işləyən F.Köçərli "Tərəqqi"nin səhifələrində İrəvanda belə məktəblərin açılmasından böyük sevinclə söhbət açırdı. (Bax, "Tərəqqi", 1909, №28)

1831-ci ildə ikisinifli məktəb kimi fəaliyyətə başlamış,1869-cu ildə dördsinifli məktəbə çevrilmiş məktəbin bazasında 1881-ci ildə İrəvan gimnaziyasının açılması, elə həmin ildəcə burada Müəllimlər Seminariyasının fəaliyyətə başlaması, bunlarda xeyli azərbaycanlının (müdavimlərin 20-25 %) təhsil alması böyük mütərəqqi hadisə sayıla bilərdi.

Lakin İrəvan seminariyası nəinki quberniyanın, heç şəhərin müəllim kadrlarına olan ehtiyaclarını tam ödəyə bilmirdi. 1897-ci ilin məlumatlarına görə İrəvanda olan müəllim kontingenti müəllim kadrlarına olan mövcud tələbatın cəmisi 20 %-ni ödəyə bilirdi[2].

İrəvan üsuli-cədid məktəblərinin, xüsusilə Mirzə Həsən Rüşdiyyənin fəaliyyəti onun İranda yeni maarifçilik hərakatının formalaşmasındakı rolu geopolitik maraqlar kontekstində təhlil edilmişdir. Bütün kəm-kəsir və çatışmazlıqlara, müstəmləkəçi rejimin yaratdığı çoxsaylı əngəllərə bax-

---

[1] H.Əhmədov. XIX əsr Azərbaycan məktəbi, Bakı 2006, s.176

[2] Köçərli F. Seçilmiş əsərləri. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1963, s.194

mayaraq İrəvan təhsili onu yaşadan tərəqqipərvər-maarifçi ziyalılarımız, pedaqoqlarımız İrəvanın əzəli tarixi türk özünüdərkinin qorunub saxlanılmasında əvəzsiz rol oynamasına yanaşma baxımından müasir dövrümüz üçün aktual elmi ümumiləşmə hökmünü qorumaqdadır.

Üçüncü fəslin ikinci yarımfəslində *"Təhsili idarəetmənin ümum-imperiya modelinə keçid: unifikasiya prosesləri"* tədqiq edilir. Bu məqsədə 22 noyabr 1873-cü il də qəbul edilmiş "Qaydalar" ilə Qafqaz diyarının «xalq» maarifi birdəfəlik ümumimperiya daxilindəki məktəb şəbəkəsini xarakterizə etməklə tədqiqat işində unifikasiyaya cəhdin mahiyyəti təhlil edilir. Ali məktəblərə daxil olanlara verilən üstünlük də aradan qaldırılmaqla, rus dilinin tədrisi daha da gücləndirildi. Qafqaz Tədris Dairəsi qəyyumunun 1873-cü ilə aid hesabatında deyilirdi: "Keçən ilki hesabatımda göstərdiyim kimi, dövlət məktəblərində müsəlman şagirdlərinin sayı artmaqdadır. Bu artım bu il də davam etmiş və hesabat ilində 730-a çatmışdır. Onların 105-i əsasən Bakı və Vladiqafqazda olmaqla realnı məktəblərində, 80-i gimnaziyalarda, 50-i progimnaziyalarda, qalanları isə qəza və ibtidai məktəblərdə oxuyur. Bunlardan 250 nəfəri dövlət hesabına pansionda yaşayır."[1] Azərbaycanlıların dövlət məktəblərində get-gedə artmasından bəhs edən L.Modzalevski yazırdı: "belə bir fərəhli hadisənin əhəmiyyətini etiraf etməmək olmaz ki, tədris dairəsinin əhatə etdiyi məktəblərdə (1876-cı il yanvarın 1-nə olan məlumata görə) uzun müddət Avropa məktəblərinə yabançı olan dağlılardan və müsəlmanlardan 762 şagird (o cümlədən 15 qız) təhsil alır"[2]

Tədqiqat zamanı XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlərində dünyəvi təhsilin yayılmasında təlimin rus dilində aparıldığı xalq məktəblərinə xüsusi diqqət yetirilməsi əhalidə yeni maarifçi tendensiyalara olan marağın ifadəsi baxımından da əhəmiyyətlidir. Öncə nəzərə almaq lazımdır ki, bu sahədə də vəziyyət heç də ürəkaçan deyildir. Xalq məktəblərinin ləng şəbəkələşməsi kəndlərdə rusdilli təhsilə mənfi təsir göstərirdi. Bu problemə diqqət yetirən görkəmli təhsil tarixçisi Hüseyn Əhmədov yazırdı ki, maddi bazanın, ilk növbədə tədris binasının olmaması, azərbaycanlı müəllim kadrlarının azlığı əsas əngəllərdən idi. Ona görə də

---

[1] Отчет попечителя Кавказского учебного округа о состоянии учебных заведений за 1872 г., Тифлис: Тип. Церетели, 1873, ст. 41

[2] Модзалевский Л.Н. Ход учебного дела на Кавказе с 1802 по 1880 год. Тифлис: Тип. А.А.Михельсона, 1880, ст.83

kənd məktəblərinə müxtəlif məktəblərdə təhsil almış şəxslər, çox vaxt isə müəllimlik hüququ olmayan şəxslər təyin olunurdu.[1]

İlk dəfə Lənkəran qəzasının rus kəndləri olan I Andreyevka (1857), I Astraxanka (1857), Nikolayevka (1860-cı il), Prişib (1860) kəndlərində, eləcə də Şamaxı qəzasının Hilmilli (1860-cı il) və Mərəzə (1866-cı il) kəndlərində açılan ibtidai məktəblərin fəaliyyətinin ümumiləşdirilməsi yuxarıdakı elmi qənaətin ciddiliyini göstərir. Ölkənin Rus və Azərbaycan icmaları arasında artmaqda olan maarifçi təşəbbüskarlıq Azərbaycanın Rusiyalaşdırma prosesinə də öz təsirini göstərirdi.

Bu tendensiya ondan irəli gəlirdi ki, Qafqazın bir çox cəhətdən hökumətin diqqətinə daha çox ehtiyacı vardı, o cümlədən bu ehtiyac xalq təhsilinin həm ümumi, həm də professional sahəsində nəinki ölkənin maddi vəziyyətini qaldırmaq, həm də Rusiya ilə mənəvi əlaqələrin möhkəmləndirilməsi üçün gərək idi.

Beləliklə, Şimali Azərbaycan kəndlərində təhsilin rus dilində verildiyi dövlət kənd (xalq) məktəblərinin açılması zamanı Azərbaycan kəndlisinin həm məktəb açması, həm onun üçün bina ayırması, həm də müəllim üçün mənzil tutması zülmətdə qalan xalqın psixologiyasında böyük dönüşün başlandığından xəbər verirdi. Buna həm Şimali Azərbaycanın ayrı-ayrı qəzalarında xidmət edən çar məmurları, həm də xalqımızın tərəqqipərvər nümayəndələri sevinirdilər. Birincilər azərbaycanlıların rus dilini öyrənməsinə, rus dilində təhsil almasına, ikincilər isə xalqının cəhalət və fanatizm təsirindən az da olsa uzaqlaşmasına, dünyəvi təhsilə qovuşmasına sevinirdilər, fərəh hissi keçirirdilər.

Prosesi müsbət yöndən dəyərləndirən Rusiyanın məktəb və pedaqoji fikir tarixinin tanınmış tədqiqatçıları A.İ.Piskunov və E.D.Dneprov haqlı olaraq qeyd edirlər ki, "milli məktəblər yaradılması və onlarda təlimin ana dilində aparılması uğrunda mübarizə milli azadlıq hərəkatının formalarından biri olduğuna görə mütərəqqi rus ictimaiyyəti və o cümlədən qabaqcıl rus pedaqoqları da bu mübarizəni müdafiə edirdilər"[2]

Tədqiqat zamanı XIX əsrin ikinci yarısında Qafqazda, o cümlədən Şimali Azərbaycanda mütləqiyyətin yeritdiyi təhsil siyasətinin əsas istiqamətlərini ümumiləşdirərkən belə bir məsələyə xüsusi diqqət yetirilir ki,

---

[1] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1985, s.87

[2] Очерки истории школы и педагогической мысли народов СССР. Вторая половина XIX в. Ответственный редактор А.И.Пискунов, Москва: Педагогика, 1976, ст.13

ruslaşdırma siyasətini həyata keçirməyə qabil, öz ana dilini və rus dilini mükəmməl bilən pedoqoji kadrları hazırlamaq məqsədilə qeyri-azərbaycan mühitində tədris müəssisəsinin açılması müsəlman fanatizminə qarşı "müxalifətdə" duran ziyalıların yetişməsinə gətirib çıxardı. Bu ziyalılar həm əməli fəaliyyətlərində, həm də dövri mətbuatdakı çıxışlarında həmvətənlilərinin sosial-iqtisadi və mədəni inkişaf səviyyəsinin təkzib edilməz faktlara əsaslanan tənqidini verməklə, eləcə də qonşu xristian xalqlarının nailiyyətlərini göstərməklə Azərbaycan cəmiyyətinin əsas istiqamətinin məktəb və maarifin inkişafında, tədris müəssisələrində azərbaycanlı şagirdlərin sayının artırılmasında olduğunu vurğulayırdılar.

Prosesin tədqiqi zamanı həmçinin belə bir ümumiləşməyə əsaslanılır ki, XIX əsrin 70-ci illərindən başlanan milli oyanış və özünüdərk prosesi XX əsrin əvvəllərində yeni vüsət almaqla o zamankı Azərbaycan cəmiyyəti üçün xarakterik olan passiv müşahidəçiliyin aktiv mövqe ilə əvəzlənməsinə gətirib çıxarmışdır. Rusiyanın müsəlman xalqları arasında da yeni maarifçi hərəkatın inkişafı prosesi də dissertasiyada xüsusi əsaslandırma sayəsində müqayisəli tədqiqini tapmışdır.

Rusiyada formalaşmaqda olan yeni müsəlman maarifçiliyinin banilərindən olan İsmayıl bəy Qasprinski və onun 1884-cü ildən nəşr etdirdiyi "Tərcüman" qəzetinin, eləcə də onun həmin dövrdə Baxçasarayda açdığı "Üsuli-cədid" məktəbinin sonralar böyük ictimai-pedaqoji, maarifçi hərəkatın tarixi təşəkkülündə oynadıqları rolun araşdırılması xüsusi qeyd edilməlidir. Məhz bu ideyaların nəticəsi olaraq Rusiyanın müsəlman cəmiyyətində "Üsuli-cədid" və "Üsuli-qədim"i müdafiə edənlər arasında yaranan polemikanın mədəni-maarifçi diskussiyalara çevrilməsi təhsilə, ictimai həyata alternativ yanaşma baxımından ciddi hadisə olaraq araşdırılır. Yeni ictimai tendensiyanın daşıyıcısı olan "Üsuli-cədid" hərəkatına qarşı olan "Üsuli-qədim"çilərin əksəriyyəti islam adət-ənənələrinin qəti şəkildə tətbiqinə tərəfdar olan, hər növ yeniliyi ruslaşdırma kimi qəbul edən fanatik mollalar, şeyxlər və bəzi varlılar idi. "Qədimçilər" "cədidçiləri" dinsiz adlandırır və onların sosialist olması haqda hökumətə xəbərlər verirdilər. Belə hadisələr xüsusilə imperyanın Ural, Sibir və Volqaboyu bölgələrində tez-tez baş verirdi. Hökumət xəbərçi "qədimçilərin" sözlərinə inanaraq "cədidçiləri" mühakimə edir, "Üsuli-cədid" məktəblərini isə bəzən inqilab ocaqları sayırdı.[1]

---

[1] Nadir Dövlət. Rusiya türklərinin milli mübarizə tarixi (1905-1917) Bakı: Ağrıdağ, 2002, s.96

Dissertasiyada bu poses ilk dəfə olaraq həm də Rusiyada gedən ictimai-siyasi və maarifçi diskussiyaların qarşılıqlı təsiri olaraq təhlil edilir. “Slavyanofillər” və “qərbçilər” adı altında aparılan bu diskussiyalar Rusiyanın inkişafının yeni perspektivlərini əsaslandırma məqsədi daşıyırdı. Slavyanofillər Rusiyanın inkişafının (qərbi Avropa ilə müqayisədə) xüsusi yolunun zəruriliyini əsaslandırmağa çalışırdılar. Onlar pravoslavlığı, icma məişətini, rus xalqının mütiliyini, onun tarixində sinfi təbəqələşmənin olmamasını rus tarixinin xüsusiyyətləri sayır, rus tarixində və mədəniyyətində “rus ruhu”nun özünəməxsusluğunu vurğulayırdılar...Qərbçilər isə feodal-təhkimçilik münasibətlərinin ləğv edilməsi və Rusiyanın “Qərb”, yəni burjua yolu ilə inkişafı uğrunda çıxış edirdilər. Təhsil-tərbiyə məsələlərində qərbçilərin mövqeyi xüsusilə maraqlı idi[1]

XX əsrin əvvəllərindən başlayaraq 1917-ci il oktyabr çevrilişinə qədərki dövrdə bütün Rusiya müsəlmanlarının, türk xalqlarının sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatlarında dönüş yaratmaq uğrunda apardıqları mübarizə ölkədə həyata keçirilən təhsil siyasəti kontekstində tamamilə yeni elmi meyarlara istinadən ümumiləşdirilir.

Dissertasiyanın dördüncü fəsli **“XX əsrin əvvəllərində Şimali Azərbaycanda yeni ictimai-maarifçi mühit və təhsilin inkişafına onun təsiri”** adladlanır. Bu fəslin birinci yarımfəslində *“Dövrün ictimai-pedaqoji hərəkatının ümumi səciyyəsi”* araşdırılır. XIX əsrin sonlarında Rusiya sənayesinin inkişafı, Şimali Azərbaycanda da sənayenin maddi-texniki bazasının sürətlə yeniləşməsi ilə əlaqədar savadlı adamlara, xalq təhsilinin problemlərinə və məktəbin ehtiyaclarına dövlətin və cəmiyyətin diqqətini artırırdı. O zaman hələ olduqca zəif olan ictimaiyyətin səyləri, kənd və şəhər əhalisinin müəyyən hissəsinin fəaliyyəti nəticəsində hələ XIX əsrin 70-80-ci illərində ölkədə təhsil işinin müəyyən irəliləyişləri müşahidə olunmağa başlamışdı. Rusiyanın, Qafqazın kənd cəmiyyətləri və ictimai qüvvələri hamının istifadə edə biləcəyi xalq məktəbinin əsasını qoymuşdu. Həmin illərdə elmi biliklərin rolu və əhəmiyyəti, məktəb quruculuğunda xüsusi və ictimai təşəbbüsün inkişafı üçün böyük səy və güc sərf olunmuşdu.

Təhkimçilik hüququnun ləğvi ilə sosial-iqtisadi sahədə başlanan canlanma ictimai-maarifçi həyatın da yeni tarixi reallığa transformasiya prosesi olaraq araşdırılır. Tədqiqatın əsas məğzi olaraq bu prosesin milli

---

[1] Rüstəmov F.A. Pedaqogika tarixi(xarici ölkələrdə təhsil və pedaqoji fikir tarixi). Dərslik. Bakı, “Nurlan”, 2006, s.483

ucqarlara təsiri, daha doğrusu milli ucqarların bunlardan bəhrələnmələrinin müqəddəm şərtlərinin ümumiləşdirilməsidir.

XX əsrin əvvəllərində Rusiyada yaranmış ictimai-siyasi şərait Azərbaycana da güclü təsir göstərdi. Rusiyanı bürüyən azadlıq hərəkatı, 1905 – 1907-ci illər burjua-demokratik inqilabı Azərbaycanda genişlənməkdə olan milli hərəkatın, o cümlədən təhsilin yeni müstəvidə inkişafına əsaslı təsir göstərdi. Baş verən ictimai-siyasi hadisələr, xalqın azadlıq mübarizəsi, maarif müəssisələrinin, məktəblərin genişləndirilməsi, təhsilin ana dilində, pulsuz və ümumi olması tələblərini irəli sürməyə şərait yaratdı[1].

İlk dövrdə ictimai-pedaqoji hərəkat ümumxalq savadlılığının inkişafına istiqamətlənmiş, təhsil-tərbiyənin humanistləşdirilməsi, qabaqcıl didaktik fikrin praktikaya tətbiq olunması, məktəb quruculuğu və məktəbdənkənar maarif fəaliyyətində xüsusi təşəbbüs və ictimai azadlığın təmin olunmasına yönəlmişdi. Dissertasida bu məslələr təhlil edilərək belə bir nəticəyə gəlinir ki, mühafizəkar qüvvələrə fəal əks təsir göstərən bu ictimai-pedaqoji hərəkat Şimali Azərbaycanın məktəb həyatına nikbinlik və yeni tipli oyanış gətirirdi. Prosesin məntiqi nəticəsi olaraq tədqiqat işində əsaslandırılır ki, XX əsrin əvvəllərində ictimai-pedaqoji hərəkatın aparıcı formalarının müəyyənləşməsində maarifçilik cəmiyyətləri və təşkilatları, müəllimlərin qarşılıqlı kömək cəmiyyətləri, xalq təhsili məsələləri üzrə qurultaylar böyük rol oynamışdı.

XX əsrin əvvəllərində ictimai-pedaqoji oyanışın özünü bariz şəkildə göstərməsi, mərkəzi və yerli pedaqoji jurnallar şəbəkəsinin güclü inkişaf etməsi də ictimai-pedaqoji hərəkatın vacib inkişaf amili oldu.

Tədqiqatda xüsusilə vurğulanır ki, Azərbaycan XX yüzilliyə dövrün siyasi hadisələrinə kifayət qədər təsir göstərə biləcək güclü ziyalı potensialı ilə qədəm qoymuşdu. Bunların arasında siyasət meydanında özünü göstərə biləcək, Rusiya, Türkiyə və Avropanın ayrı-ayrı universitetlərində oxumuş təcrübəli şəxslər olduğu kimi, yazıçı, jurnalist, müəllim və sənaye-ticarət sahəsində çalışmağa qadir milli burjuaziya nümayəndələri də var idi. Onlar milli, demokratik ideyalar təbliğ edir, daha da ciddi işlər görmək üçün əlverişli şərait gözləyirdilər. Azərbaycanın milli ziyalı təbəqəsi xalqın gələcəyinə böyük ümid bəsləyirdilər[2].

---

[1] Mərdanov M.C. Azərbaycan təhsil tarixi. I cild. Bakı, "Təhsil", 2011, s.105

[2] Məmmədov X.M. Aydınlarımızın istiqlal mücadiləsi. Bakı. «Biznes Universiteti», 1999, s.28

XIX əsrin axırı, XX əsrin əvvəllərində ictimai-pedaqoji hərəkatın köməyi ilə ölkədə qadın təhsilinin inkişafının araşdırılması əldə edilmiş elmi nəticələri tamamlamaqla formalaşmaqda olan milli elitanın fəal dəstəsi kimi Azərbaycan qadınının yeni ictimai simasını müəyyənləşdirmişdir.

Qabaqcıl ziyalılar ibtidai xalq məktəblərində qadın kontingentinin artması uğrunda fəal mübarizə aparır, yeni tipli ibtidai qadın məktəblərinin açılması planlarını işləyib hazırlayırdılar.

XX əsrin əvvəllərində xüsusi şəxslərin və ictimai təşkilatların fəaliyyəti sayəsində qadınlar üçün bazar günü məktəblərinin şəbəkəsi genişlənirdi. Bu mənada H.Z.Tağıyevin qız məktəbi xüsusi populyarlıq qazanmışdı.

Dissertasiyada ən mühüm məsələlərdən biri də bu ictimai-pedaqoji hərəkatın əsas nüvəsini təşkil edən müəllimlərin fəaliyyətinin tədqiqi idi. Fəal ictimai-siyasi sima olan dövrün müəllimləri milli elitanın aparıcı dəstəsi olaraq sosial ideallların carçıları kimi təqdim edilir. Bununla da onların simasında ictimai –maarifçi ideyaların sosial mədəni yeniliklərin həyata keçirilməsi naminə özünü fəda etməyə hazır olan Azərbaycan ziyalısının xarakterinin yeni tərəfləri müəyyənləşdirilir. Bu baxımdan dissertasiyada verilmiş belə yekun elmi qənaət xüsusilə maraqlıdır ki, mühavizəkar dövlətlə, qabaqcıl ictimai qüvvələrin xalqın maarifi uğrunda mübarizəsi yalnız sosial dinamika nöqteyi-nəzərindən maraqlı deyil, o həm də araşdırılan dövrün məktəb və pedaqogikasına bilavasitə təsir göstərən amil kimi qiymətlidir. Rusiya məktəbi ölkədə gedən mühüm proseslərin episentrinə çevrilərək özündə cəmiyyətin özünəməxsus genetik kodunu cəmləşdirmişdir. O, zamankı Azərbaycan mühitində yaxşı və pis nə varsa, hamısı o məktəbdən kök atıb inkişaf etmişdir.

İkinci yarımfəsildə *"İmperiyadaxili ictimai-pedaqoji hərəkatın Cənubi Qafqazda və Azərbaycanda əks-sədası"*ndan bəhs olunur. Burada XX əsrin əvvəllərində imperiyanın milli ucqarlarında baş verən inqilabi-demoktarik proseslərin təsiri nəticəsində bütün müsəlman xalqları arasında milli oyanış güclənməsi, milli şüurun yeni səviyyəyə qalxması faktoru kimi təhlil edilir. Bu baxımdan Rusiya müsəlmanlarının milli maarifçiliyinin intişarında mühüm rol oynamış qurultayların tarixi əhəmiyyəti əsaslandırılır. Xüsusilə, 1905-ci il avqustun 15-də Nijni-Novqorodda "Qustav Struve" gəmisində keçirilmiş Rusiya müsəlmanlarının birinci qurultayı, Azərbaycan milli marifçiliyinin aparıcı simalarından olan M.Rəsulzadənin, Ə.Topçubaşovun və başqalarının qurultayın işində fəal

iştirak etməklə yanaşı söylədikləri parlaq nitqləri kontestindən ictimai hərəkatın perspektivləri təhlil edilmişdir.

Qurultayda mədəniyyət və maarif məsələləri üzrə çoxsaylı maddə və bəndlərdən ibarət qərarın təhlili də yüksək elmi nəzəri səviyyəsilə təqdirəlayiqdir. Bəzi müddəalardakı dini tələblər olmasaydı bu proqramı sırf dünyəvi proqram kimi qiymətləndirmək olardı.

Qurultayda çıxış edənlər arasında mühafizəkarlar, qatı dindarlar, liberallar, türk birliyi tərəfdarları, ən qatı sosialistlər var idi. Səhvlərinə baxmayaraq dövrünə görə mühüm qərarlar qəbul etmiş qurultay çarizmin yıxılmasından istifadə edərək türk birliyi yaratmaq dərəcəsinə qədər yüksələ bilməməsi yeni tarixi pedaqoji qənaətlərlə əsaslandırılmışdır.

Dissertasiyada ümumiləşdirilmiş belə bir fikir xüsusiə diqqəti cəlb edir ki, ilk dövrdə ictimai-pedaqoji hərəkat ümumxalq savadlılığının inkişafına istiqamətlənmiş, təhsil-tərbiyənin humanistləşdirilməsi, qabaqcıl didaktik fikrin praktikaya tətbiq olunması, məktəb quruculuğu və məktəbdənkənar maarif fəaliyyətində xüsusi təşəbbüs və ictimai azadlığın təmin olunmasına yönəlmişdi. Mühafizəkar qüvvələrə fəal əks təsir göstərən bu ictimai-pedaqoji hərəkat Şimali Azərbaycanın məktəb həyatına nikbinlik və yeni tipli oyanış gətirdi.

Azərbaycanı inkişaf etmiş ölkələr cərgəsinə qoşmaq uğrunda gedən bu ictimai-pedaqoji hərəkatın ön sıraları pedaqoq - demokratları, maarifçiləri, ümumiyyətlə, məktəb islahatları düşərgəsinin tərəfdarlarını birləşdirməklə yanaşı, geniş cəmiyyəin xalq maarifinə marağını artırmağa kömək edirdi. Bu hərəkat qabaqcıl Azərbaycan cəmiyyətinin maarif sahəsində xeyli əmək sərf etmiş maarifçilərinin ideyalarından ruhlanaraq milli məktəb ideyası uğrunda mübarizədə vacib rol oynamışdır.

Üçüncü yarımfəsildə *"Milli ucqarlarda ictimai-pedaqoji mühit və təhsilin yeni inkişaf istiqamətləri"* araşdırılır. Burada yeni inqilabi şəraitdə Azərbaycan xalqının məqsəd və arzularını müəyyənləşdirmək məqsədi ilə bağlı ilk addım olaraq, 1917-ci il aprelin 15-20-də Bakıda keçirilmiş Qafqaz müsəlmanlarının qurultayının təhlili aparılır. Qeyd edilir ki, qurultayın müzakirə etdiyi son məsələ əhalinin əsas kütləsinin savadsız olduğu Qafqaz xalqları üçün çox böyük əhəmiyyəti olan kütləvi təhsil haqqında idi.

Problemin tədqiqi əhəmiyyəti nəzərə alınaraq göstərilir ki, 1917-ci ilin martından etibarən ölkədə yeni siyasi şərait meydana çıxmış, bir çox siyasi partiyalar leqal fəaliyyət imkanı qazanaraq kütlələr arasında açıq təşviqat-təbliğat işinə başlamışdı. Müvəqqəti hökumətin və onun tədris

idarəsinin fəaliyyətsizliyinə qarşı bu partiyalar geniş xalq kütlələrinin maraqlarına cavab verən məktəb proqramını qarşı qoydular.

Hadisələrin sonrakı mərhələləri göstərirdi ki,bir sıra maddəsi deklarativ xarakter daşıyan bu proqramı nə müvəqqəti hökumət zamanı, nə də sonrakı dövrdə tam həyata keçirmək mümkün olmadı. Bolşeviklərin oktyabr qiyamı və çevrilişindən sonra yürütdükləri təhsil siyasəti də bütövlükdə dünyəvi savadsızlığın ləğvi, elm və təhsilin inkişafında böyük uğurlar əldə etsə də ruslaşdırma mahiyyəti pərdələnmiş şəkildə saxlanılmış, maliyyələşmə, təchiz sahəsində ayrı-seçkilik aradan qaldırılmamış, təhsil tam siyasiləşdi-rilib, partiyalılaşdırılıb kommunist-bolşevik ideologiyasının xidmətinə qoyulmuşdu.

Faktlar, problemlə bağlı əsaslı dəlillər göstərir ki, Çar Rusiyasının milli ucqarlarda, o cümlədən də Cənubi Qafqazda və Azərbaycanda həyata keçirdiyi təhsil siyasəti unifikasiya cəhdləri ilə xarakterizə edilən çox məşəqqətli bir siyasi mərhələ olaraq tarixə düşmüşdür. Hər cür etnik, milli, dini və əyalətci basqılar altında yetişərək formalaşan ziyalılar odusu yeni tipli tarixi-pedaqoji paradiqmanın formalaşmasının mücahidləri olaraq çox şərəfli bir missiyanı, milli maarifçiliyin tarixi təşəkkülünü təmin etmək missiyasını fədakarcasına yerinə yetirirdilər.

Çar Rusiyasının Azərbaycandakı təhsil siyasətinin əsas istiqamətlər üzrə tədqiqi bir daha göstərdi ki, Çar Rusiyası tərəfindən ölkəmizin istila edilməsi çox ciddi nəticələrə gətirib çıxarmaqla təhsil quruculuğunda da yeni transformasiyaya keçidi zəruriləşdirdi. Bununla ərəb və fars dilli Şərq təhsil ənənələrindən Avropaya inteqrasiyaya tarixi təkan verəcək rusdilli təhsilə keçid ölkənin təhsil siyasətinin başlıca leytmotivini təşkil etdi.

XIX əsrin sonları, XX əsrin əvvəllərində çar Rusiyasının Şimali Azərbaycanda yürütdüyü təhsil siyasəti müstəmləkəçi, xristianlaşdırıcı və ruslaşdırıcı mahiyyət daşımaqla sözün geniş geopalitik mənasında unifikasiya cəhdi idi. Bu siyasət məhz həmin məqsədlərə çatmağa yönəlsə də xalqımız hər cür basqılara sinə gələrək milli mentalitetini, dini, etnik, coğrafi-mədəni ... özünəməxsusluğunu nəinki qoruyub saxlaya bilmiş, əksinə mövcud siyasi-tarixi şəraitdən yuxarıda qeyd etdiyimiz məqsədlər naminə maksimum bəhrələnmişdir. Məhz həmin dövrdə burada dünyəvi məktəblərin məhdud da olsa ilkin şəbəkəsi yaradılmış, dünya və Avropa elmi və mədəniyyəti ilə yaxından tanış olan görkəmli maarifçilər, demokratlar, ziyalılar nəsli yetişmişdi ki, onların da simasında gələcək Azərbaycan dövlətinin, – bütün türk-müsəlman şərqində ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları, çox böyük güclərlə uğurla

aparılan «Azərbaycan davası» adlı milli mücadilənin fədailəri yeni tipli tarixi – pedaqoji paradiqmanı uğurla formalaşdırırdılar.

Dissertasiyada bu şərəfli prosesin uğurla başa çatdırılması həm də geopolitik reallıqlardan proqmatikcəsinə bəhrələnmə kimi dəyərləndirilmiş, bu zaman belə bir elmi-konseptual qənaət əsas götürülmüşdür ki, "Orta əsrlərdən başlayaraq bu günə qədər beynəlxalq münasibətlərin ruhunu və dünya siyasətinin əsas prinsiplərini bütövlükdə böyük dövlətlər, onların yaratdığı imperiyalar, strateji məqsədlərlə birləşmiş dövlət birlikləri və başqa planetar güclər həll etmiş və etməkdədir. Əslində, dünyadakı birgə yaşayış normalarını da, beynəlxalq davranışın qaydalarını da məhz həmin dövlətlər müəyyən edərək, iradələrini birbaşa və yaxud dolayısı ilə digər dövlətlərə qəbul etdirir, dünyanın geosiyasi xəritəsini cızır, strukturunu formalaşdırır, dövlətlərarası arbitr və idarəetmə funksiyalarını icra edirlər... o ki qaldı digər dövlətlərə, onlar mövcudluqları dövründən başlayaraq bu günə qədər öz iqtisadi və milli müstəqilliklərini təmin etmək, böyük dövlətlərdən qorunmaq və suveren yaşamaq üçün ayrı-ayrılıqda və başqa dövlətlərlə birlikdə mübarizə aparırlar[1]."

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas vermişdir:

1) Çar Rusiyası tərəfindən ölkəmizin istila edilməsi çox ciddi hadisələrə gətirib çıxarmaqla təhsil quruculuğunda da yeni transformasiyaya keçidi zəruriləşdirdi. Bununla da ərəb və fars dilli Şərq təhsil ənənələrindən Avropaya inteqrasiyaya tarixi təkan verəcək rusdilli təhsilə keçid ölkənin təhsil siyasətinin başlıca leytmotivini təşkil etdi.

2) Rusiya işğalı, romanovların burada qurduqları müstəmləkə rejimi nəticə etibarı ilə Şimali Azərbaycanda çoxillik tarixə malik dövlətçiliyimizin ləğvinə səbəb olmaqla ölkənin siyasi elitası məhv edildi, dövlətçilik, idarəçilik təcrübəsinə malik kadrlar müxtəlif yollarla sıradan çıxarıldı, müsəlmanlar, xüsusilə Azərbaycan türkləri, inzibati-bürokratik idarə etmə işlərindən tamamilə kənarlaşdırıldılar.

3) Romanovlar Rusiyası Cənubi Qafqaz diyarının, o cümlədən Şimali Azərbaycanın hərbi-siyasi istilasını nisbətən qısa müddətə - 1801-1829 -cu illərdə başa çatdırsa da, ölkələrin sosial-iqtisadi, mənəvi-mədəni «istilasını» başa vurmaq üçün çarizmə daha çox müddət, neçə-neçə onilliklər lazım gəldi.

4) Mənəvi-mədəni sahədə çarizmin burada tam hökmranlığa nail olmaq cəhdlərinə baxmayaraq romanovların bu sahədəki siyasəti iflasa uğramış,

---

[1] Həsənov Ə.M. Giosiyasət (Dərslik). Bakı,"Aypara-3"nəşriyyatı, 2010, s.8

çarizm azadlıqsevər Azərbaycan xalqının iradəsini qıraraq onun mənəviyyatına hakim ola, milli-etnik dəyərləri unutdura, onu rus mənəviyyatı içərisində əridib itirə bilməmişdir.

5) XIX əsrin axırları və XX əsrin əvvəllərində Çar Rusiyasının Şimali Azərbaycanda yürütdüyü təhsil siyasəti bir sıra özəl və spesifik xüsusiyyətlərə malik olmuşdur. Belə ki, təhsilin, ideoloji-mənəvi tərbiyənin, təlimin rolunu yaxşı başa düşən çar hökuməti guya ki, sırf dünyəvi təhsil sistemi yaratmaq məqsədi ilə ilk növbədə məktəblər şəbəkəsini müsəlman ruhaniləri və ziyalılarının əlindən qoparıb almağa, təlim-tərbiyə sahəsində şərq-müsəlman ideologiyasının inhisarına son qoymağa cəhd göstərdi. Din xadimlərinin bir növ rus «attestasiyasından» keçirilməsi, xüsusən də Rusiya imperiyasının hüdudlarından kənarda təhsil almış din xadimləri və ziyalılar üzərinə ciddi dövlət nəzarətinin qoyulması da elə bu məqsədlərə xidmət edirdi.

6) Çarizmin Şimali Azərbaycanda yürütdüyü təhsil siyasətinin ən mühüm istiqamətlərindən birini burada xristianlığın yayılması, pravoslav dəyərlərinin yerləşdirilməsi, rus ruhunun təlqin edilməsi, mütləqiyyətçilik ideologiyasının aşılanması idi. Dünyəvi təhsil pərdəsi altında böyük dövlətçilik ideologiyası, rus mənəviyyatı beyinlərə yeridilirdi.

7) XIX əsrin sonları, XX əsrin əvvəllərində hökumətin Güney Qafqazda, o cümlədən Şimali Azərbaycanda yürütdüyü təhsil siyasətinin ən başlıca məqsədlərindən biri yerli çar idarələrində çalışmaq, xalqın sərvətlərini daha yaxşı soymaq üçün yerli və rus dillərini bilən, xalqı yaxşı tanıyan, amma rus böyük dövlətçiliyi, rus xristianlığı və şovinizmi ruhunda köklənmiş qeyr-milli məmurlar hazırlamaq idi.

8) Məqsədi Şimali Azərbaycanda rus müstəmləkə ağalığının təsbit olunmasına və möhkəmlənməsinə xidmət edən, məğzi ruslaşdırma və xristianlaşdırmadan ibarət olan bu təhsil siyasəti son dərəcə qeyri-ardıcıllığı və pərakəndəliyi ilə seçiliməklə müvəffəqiyyət qazanmadı.

9) Çar hökuməti Qafqazda, o cümlədən Şimali Azərbaycanda həyata keçirdiyi təhsil sistemində müəyyən unifikasiya aparmağa cəhd edilsə də, bu məktəbləri imperiyanın daxili quberniyalarında mövcud olan təhsil şəbəkəsinin üzvi tərkib hissəsinə çevirməyə çalışsa da son nəticədə unifikasiya cəhdləri uğursuzluğa uğramışdı.

10) XIX əsrdə və XX əsrin əvvəllərində çarizmin Azərbaycanda yürütdüyü təhsil siyasətinin müstəmləkəçi xarakter daşıması həm də onda təzahür edirdi ki, az qala yüzillik rus müstəmləkəçiliyi dövründə burada əhalinin dünyəvi təhsilə tələbatını ödəyəcək geniş məktəblər

şəbəkəsi yaradılmadı, orta məktəbləri az qala barmaqla saymaq olardı. Orta ixtisaslı müəllim kadrları hazırlayacaq seminariyaların sayı daha az idi. Nəhayət, əhalinin marağına, dövrün kəskin tələbatına baxmayaraq çar hökuməti Cənubi Qafqazdakı yüzillik hakimiyyəti dövründə Şimali Azərbaycanda ali tədris müəssisəsi yaratmadı.

11) Çarizmin müstəmləkəçilik məqsədlərinə baxmayaraq burada yürüdülən rəsmi təhsil siyasəti Şimali Azərbaycanda Avropa və Rusiya yönümlü dünyəvi təhsil sisteminin meydana çıxıb təşəkkül tapması ilə sonuclandı. Belə məktəblər Şimali Azərbaycan əhalisi içərisində dünyəvi, Avropa və Rusiya təhsili, elmi və mədəniyyətinin tədricən tanıdılmasına şərait yaratdı.

Ənənəvi Azərbaycan müsəlman məktəblərindən qaynaqlanan yeni dünyəvi məktəblərdə bilik alıb formalaşan Azərbaycan ziyalıları öz vətənlərində nəinki qabaqcıl dünya və Avropa mədəniyyətinin təbliğatçılarına, ölkədə mövcud olan ətalətə, cəhalətə qarşı mübarizənin fəal iştiraksılarına çevrildilər, həmçinin məhz onların sırasından Azərbaycan milli şüurunun formalaşdırılmasında mühüm rol oynamış görkəmli maarifçi ziyalılarımız, ictimai-siyasi xadimlərimiz, nəhayət Azərbaycan Demokratik Respublikasının yaradıcıları yetişdi.

Tədqiqatla bağlı aşağıdakı **təkliflər** irəli sürülmüşdür:

-müasir dövrdə ölkəmizə qarşı erməni təcavüzünün doğurduğu fəsadlarla bağlı Ümummili lider Heydər Əliyevin çağırışları zəminində müntəzəm adekvat addımların atılmasının dövlət sifarişi daşıması kimi fundamental ictimai-humanitar tələblərdən irəli gələrək, Çar və Sovet Rusiyaları dövrü təhsil tariximizin geosiyasi reallıqlarından qaynaqlanan müntəxabat xarakterli Antologiyasının hazırlanması;

- ali və orta ixtisas təhsili müəssisələrində “Təhsil tarixi” fənni nəzrdə tutulmaqla milli məktəb və pedaqoji fikir tarixinin yeni aspektdən örənilməsinin təmin edilməsi;

-ali pedaqoji təhsil müəssisələrinin magistratura pilləsində “Üç əsrin qovuşuğunda Azərbaycan təhsili: prioritetlərin paradiqması” adlı xüsusi kursun təşkil edilməsi;

-çarizm dövrü Azərbaycan təhsilinin son dərəcə zəngin sosial-pedaqoji fenomen olmasını nəzərə alaraq bu dövrdəki dərsliklərin, iri həcmli metodik vəsaitlərin transliterasiya və faksimile edilərək kütləvi nəşr etdirilməsi;

- bu dövrdə formalaşmış milli maarifçilik İran, Türkiyə, Azərbaycan, Rusiya dördlüyü fonunda bir-birlərinə qarşılıqlı təsirləri baxımından

incələnməklə, hər birində siyasi-tarixi transformasiyanın maarifə və məktəbə tamamlayıcı təsirinin müqayisəli tədqiqinə üstünlük verilməsi;

-çar və sovet imperiyaları dövrü təhsil tarixinə dair yuxarıda qeyd edilən müxtəlif ölkələrin arxivlərində saxlanmış materialların əldə edilərək daha əhatəli tədqiqi üçün xüsusi Dövlət Proqramının qəbul edilməsi;

-bu dövrün məktəb şəbəkəsinin, mədəniyyətin və onun bir çox sahələrinin, o cümlədən kitabxana, teatr və ana dilində mətbuatın yaranması və inkişafının ictimai-humanitar fikrə təsirinin daha geniş kontekstdə öyrənilməsi;

-müasir mərhələdə təhsil sistemini qurarkən, milli təhsilin inkişaf tarixinin iki spesifik xüsusiyyətinin, o cümlədən, birincisi, yeni tipli dünyəvi dövlət məktəblərinin şəbəkələşməsində ümumavropa və milli yanaşmaların inteqrasiyası, ikincisi, dini təhsilin diqqətdən kənarda qalmaması vacibdir. Belə ki, bu şərtlərin birincisi bütün dünyada inkişafda olan milli məktəblər üçün səciyyəvi xarakter daşısa da, ikincisi ənənəvi müsəlman ölkələrində İslam tərbiyəsinin xüsusi rolu və radikal islam təlimlərinə qarşı mübarizənin zəruri şərtlərilə bağlıdır. Bu baxımdan, müasir mərhələdə Azərbaycan məktəblərində, xüsusilə, ümumtəhsil müəssisələrində onun dünyəvi istiqamətini zədələmədən "Dinin əsasları" və ya "Multikultural dəyərlərin əsasları" fənninin tədrisi üzərində düşünülməsi;

-göstərilən sahədə çoxşaxəli tədqiqatların koordinasiyası üçün Milli Elmlər Akademiyasında pedaqoji-psixoloji elmlərin təmsilçiliyinə diqqət yetirilməsinin aktuallığı nəzərə alınmalıdır.

Tədqiqat belə bir elmi qənaətlə yekunlaşır ki, üç əsrin, - XIX, XX və XXI əsrlərin qovşuğunda yeni siyasi transformasiya faktilə üzbəüz qalan Azərbaycan cəmiyyəti hər dəfə bu missiyanı milli mənafe baxımından uğurla başa çatdırmış, yəni həm çarizmin işğalı ilə ərəb və farsdilli təhsilə əsaslanan ənənəvi müsəlman məktəblərindən Avropa meylli rusdilli təhsilə, həm çarizmin süqutu və sosialist çevrilişi ilə Sovet təhsilinə, həm də ADR-in milli təhsil quruculuğu ənənələrinə istinadən, eləcə də dövlət müstəqilliyinin elan olunması ilə anadilli yeni milli təhsilə transformasiya olunan Azərbaycan təhsili bütün ideoloji-geopolitik təzyiqlərə baxmayaraq, milli mahiyyətini qoruyub saxlaya bilmişdir. Bu problem təhsilə dair Dövlət Strategiyasında ifadə edilmiş konseptual hədəflər baxımından da gələcəkdə yeni tarixi-pedaqoji tədqiqatlarla zənginləşməlidir (Bax: Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Bakı, 24 oktyabr 2013, http://www.president.az/articles/9779).

Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Üzeyir Hacıbəyov və Azərbaycan pedaqoji fikri / Respublika aspirantlarının VII elmi-konfransı, Bakı,1984, səh 230.
2. Азербайджанские ашуги – озаны – народные просветители / Народная педагогика и современные проблемы воспитания. Чебоксары, 1991, ст.87-88
3. М.Ф.Ахундов – Выдающийся гуманист и просветитель народов Закавказья / Общечеловеческое и национальное в историко-педагогического процессе X- Сессия Научного Совета АПН СССР, Москва, 1991, ст.82-83 (со автор)
4. Qiyabiçilər üçün pedaqogika tarixindən seminar məşğələlərinə dair. Metodik tövsiyə. Bakı, 1995, 36s.
5. Çarizmin Azərbaycanda yürütdüyü təhsil siyasətində Qafqaz tədris dairəsinin rolu // Pedaqoji tədqiqatlar, (Elmi məqalələr məcmuəsi) II buraxılış, 1997, səh.66-71
6. Вопросы исследования, преподавания и пропаганды педагогической мысли и школы кавказских народов на современном историческом этапе / Международная научная конференция «Актуальные проблемы образования», Тбилиси, 1997, ст.12-13.
7. «XIX əsr Azərbaycan məktəbi» monoqrafiyası Rusiya istilası dövrünün fundamental salnaməsidir // Pedaqoji tədqiqatlar (elmi tədqiqatlar məcmuəsi) 2001, №23, səh.131-139.
8. Dildə, fikirdə, işdə birlik (Ismayıl bəy Qaspiralı (1851-1914)). 2002, 243 səh. (həmmüəllif)
9. Nadir Dövlət. Rusiya müsəlmanlarının milli mübarizə tarixi (1905-1917). Tərcümə, 2002, 263 səh. (həmmüəllif)
10. Толерантность – высшее достижение человеческой цивилизации / Известия академии педагогических и социальных наук. X. Москва 2006, ст.5-8. (со автор)
11. Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: problemə müqayisəli tarixi-pedaqoji kontekstdə baxış // Azərbaycan məktəbi, 2006, №2, s.98-105
12. Rus dilini və təhsilini yayan yeni ocaqların təşəkkülü və inkişafı // Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, 2006, 6(54), s.118-121
13. Çar Rusiyasının Cənubi Qafqazdakı yeni inzibati idarə forması və məktəbin inkişafında onun rolu // AMEA-nın Folklor Institutu. Elmi axtarışlar XXIX, 2006, s.198-201

14. Çarizm dövründə Azərbaycanda dövlət təhsil müəssisələrinə ənənəvi və müasir baxış // Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, 2007, 1(55), s.150-152
15. Təhsil tariximizdən bəzi qeydlər // Azərbaycan məktəbi, 2007, №2, s.76-79
16. Yeni məktəb ənənəvi müsəlman məktəbləri səltənətində: qarşılıqlı rəqabət // AMEA-nın M.Füzuli adına əlyazmalar institutu. Filologiya məsələləri. 2007, №3, s.259-269
17. Çar Rusiyası dövrü Azərbaycanda məktəb işinin başqa regionlarla müqayisəsi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2007, №5, s.286-295
18. Çar Rusiyasının Azərbaycandakı «maarifçilik» missiyasını gücləndirmək istiqamətində yeni addımları // ADPU Xəbərləri, 2007, №5, s.27-35
19. Çar Rusiyası dövründə təhsili idarəetmənin ümumi imperiya modelinə keçid: unifikasiya prosesləri // ADPU xəbərləri, 2007, №6, s.263-267
20. Azərbaycanda çar Rusiyası dövründə sosial-pedaqoji eksperimentin davam etdirilməsi // Azərbaycan Respublikasının Təhsil Problemləri Institutu, Elmi əsərlər, 2008, №1 s.198-201
21. Çar Rusiyası dövründə ictimai-pedaqoji hərəkat və Qafqazda məktəbin inkişafı // Pedaqoji Universitet Xəbərləri. 2008, №3, s.304-311.
22. Çarizmin milli ucqarlardakı təhsil siyasəti: təhsilin tarixi-pedaqoji manerası // Pedaqoji Universitet Xəbərləri, 2008, №1, s.262-267
23. XIX əsrin II yarısında qeyri-rus xalqlarının məktəb sisteminin inkişafı // Azərbaycan Müəllimlər Institutunun Xəbərləri, 2008, №1, s.11-19
24. Yeni şərait, yeni vəzifələr: Qafqaz təhsil dairəsinin bərpası // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2008, №3, s.339-344
25. Çarizm dövrü milli ucqarlarda unifikasiya prosesi:Rusiyadakı ictimai-pedaqoji hərəkatın prioritetləri / Pedaqogika elminin inkişafında yeni mərhələ. Beynəlxalq elmi-praktik konfransının materialları, 2011, səh.11-15
26. Российское общественно-педагогическое движение и школы Азербайджана // Алматы. Хабаршы Вестник, 2014, №2 (37), s.81-87
27. Milli ucqarlarda təhsil məsələsi Çar Rusiyasının Dövlət Dumasında // Pedaqoji Universitet Xəbərləri, 2014, №2, səh.361-365.
28. Геополитические и учебно-педагогические результаты восстановления учебного округа на южном Кавказе // Вестник Кавказской Академии Труда и социальных отношений. Алматы, 2014, 2(40)səh.49-54.
29. Общественно-педагогическая жизнь России в начале XX века и ее воздействие на Азербайджана // Алматы, Ученые труды Алматинская Академии МВД Республики Казахстан, 2014, №2 (39), səh. 114-119.

30. XX əsrin əvvəllərində Rusiyada ictimai-pedaqoji hərəkatın Azərbaycana təsiri // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2014, №2 səh 29-35
31. Çarlık Rusiyası zamanında kurulan ilk devlet okullarının egitim politikasında payı // Güneydə Kültür/Temmuz-Agustos-Eylul, 2014, səh.17-20.
32. Восстановление учебного округа на южном Кавказе: Геополитика и учебно-педагогические аспекты // Алматы, Роль науки в повышении эффективности деятельности правоохранительных органов, 2014, s.282-289
33. The restoration of the school district in the south caucasus: geopolotics and pedagogical aspects // European Science and Technology: materials of the IX international research and practice conference. Munich, Dekember 24th -25th, 2014 Vol.I. p.p. 467-471.
34. Влияние всеобщего общественно-педагогического движения в царской России на развитие школ Азербайджана: проблемы иперспективы // Известия Самарского наужного центра Российской академии наук, т. 16, 2014, №2(4), səh 800-804
35. Azerbaijani Enlightenment and Development of National Consciousness during the Period of Tsarist Russia // Annales. Anali za istrske in mediteranske studije Annali di Studi istriani e mediterranei Annals for Isrian and Mediterranean Studies Series Historiya et Sociologiya, 25, 2015, 2. Koper 2015. 329-339
36. Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi pedaqoji paradiqmanın formalaşması. Monoqrafiya. Bakı: Elm, 2015, 368 s.
37. İmperiyanın süqutu dövründə Rusiyadakı ictimai-pedaqoji hərəkatın milli ucqarlara, o cümlədən Azərbaycana təsiri // Pedaqoji Universitet Xəbərləri. 2015, №2 səh. 344-348
38. Çar Rusiyası dövrü Qafqazda təhsili idarəetmənin bəzi spesifik aspektləri / Ümummili liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Təhsildə pedaqoji yanaşmalar: keçmişin təcrübəsi və gələcəyə baxış"mövzusunda Ümumrespublika elmi-praktik konfransın (4-5 may 2016) materialları. Bakı Universiteti, 2016, səh.155-156
39. Some specific aspects of education system governance carried out in period of tsar russia in Caucasus // Историческая и социально-образовательная мысль (Historical and Social Educational Ideas). Tom 8, №5/1, 2016. г. Краснодар 2016 p.p.123-130

**Г.Б.Байрамов**

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ПОЛИТИКИ ОБРАЗОВАНИЯ ЦАРСКОЙ РОССИИ В АЗЕРБАЙДЖАНЕ.

## РЕЗЮМЕ

Диссертация состоит из **введения**, **четырех** глав, **девяти** параграфов, **заключения** и списка литературы.

Во **введении** наряду с актуальностью раскрываются предмет,гипотеза, цель и задачи исследования, ее методологическая основа, научная новизна, теоретическая и практическая значимость, также представлены основные положения, выносимые на защиту.

В настоящее время исторические знания находятся в процессе постоянного обновления и являются важным компонентом нового общественно-политического сознания. В связи с этим, возникает настоятельная необходимость в новых научных исследованиях в сфере образования и истории педагогической мысли, основывающихся на современных политических, исторических и общественно- гуманитарных реалиях и свободных от исторических искажений.

В настоящее время новая парадигма политических и исторических реалий требует глубокого и всестороннего изучения сложнейших процессов, имевших место в Северном Азербайджане в сфере образования в исследуемый период. Изучение образовательной политики государства в контексте становления общественно-педагогического движения в стране имеет огромное значение. Именно этот процесс, имевший феноменальное значение в значительной степени определил характер и динамику основополагающих процессов, имевших место в сфере образования.

В настоящее время наблюдается особый, повышенный интерес к периоду истории Северного Азербайджана, отраженному в исследовании. Этот интерес объясняется тем, что в XIX веке -начале XX столетия, несмотря на жесткую колониальную политику, проводимую царизмом в Северном Азербайджане, развитие светских школ с европейской системой образования и утверждение новых культурно-социальных ценностей было более успешным по сравнению с предыдущим историческим периодом.

В период глобализации и резкого обострения геополитической борьбы для определения места нашего народа в мировом масштабе необходимо более полное и глубокое исследование национальной истории.

**Первая глава** диссертации называется «Некоторые геополитические аспекты политики образования царской России в Азербайджане» и состоит из двух параграфов-«Постановка проблемы новой политики образования, проводимой в стране» и «Оккупация Северного Азербайджана Россией и попытки трансформации в историко-гуманитарный процесс нового типа». В указанных параграфах говорится о процессах, происходивших в системе образования в тот период.

**Во второй главе**-«Факторы, определяющие становление новой государственной системы образования в Азербайджане в I половине XIX века», в двух ее параграфах «Процесс захвата: соперничество новых светских школ с традиционными мусульманскими школами» и «Влияние новых форм административного управления на развитие образования» раскрываются взаимоотношения между двумя типами школ и факторы, влияющие на развитие образования.

**Третья глава диссертации**- «Тенденции развития системы государственного образования в Азербайджане во II половине XIX века» состоит из двух параграфов: «Учет региональных особенностей в управлении учебными заведениями» и «Переход к общеимперской модели управления образованием: процесс унификации». В указанных параграфах рассматриваются актуальны вопросы, связанные с национальными особенностями и интеграцией в общероссийскую систему образования.

**Четвертая глава** диссертации-«Новая общественно-просветительская в Северном Азербайджане в начале XX века и ее влияние на развитие образования» состоит из следующих трех параграфов: «Общая характеристика общественно-педагогического движения в указанный период»; «Резонанс внутриимперского общественно-педагогического движения на Южном Кавказе и в Азербайджане»; «Общественно-педагогическая среда на национальных окраинах и новые направления развития образования». В указанных параграфах дается характеристика педагогического движения в России и в Азербайджане, определяются основные направления развития этого процесса. В **заключении** изложены основные выводы, полученные в результате исследования.

В диссертации указывается, что на современном этапе Азербайджан переживает определенные сложности в связи с агрессией со стороны Армении. В связи с эти фактом, а также основываясь на призывах общенационального лидера Гейдара Алиева о необходимости принятия адекватных шагов по указанному вопросу, и исходя из общественно-гуманитарных требований времени, можно с полным основанием говорить об актуальности данного исследования. Также необходимо отметить, что данное исследования базируется на геополитических реалиях истории отечественного образования в царской России, а также в советский период.

**H.B.Bayramov**

# MAIN DIRECTIONS OF TSARIST RUSSIA EDUCATION POLICY IN AZERBAIJAN

## SUMMARY

Dissertation consists of introduction, four chapters, nine paragraphs, conclusion and list of literature.

In **introduction** the actuality of work, it's subject, hypothesis, aim and tasks are presented. Besides, the methodological basis of work, it's scientific novelty, theoretical and practical importance are given and main items are presented also.

At the present time historical knowledge is in process of renovating and becomes very important component of new social-political mind. So, the necessity of new scientific researches, connected with sphere of education and history of pedagogy is seen clearly. These new researches must be based on political, historical and social-humanitarian realias and must be free from historical distortions.

Today new paradigm of political and historical realias demands deep and all-sided analyses of complicated processes, took place in education sphere of Northern Azerbaijan in investigated period. The study of state education policy in context of social-pedagogical movement establishing is of great importance. It was a phenomenal process, and it defined character and dynamics of main, fundamental processes in education system of Azerbaijan.

At the present time the period of Northern Azerbaijan history, reflected in investigation is paid deep and serious attention. That interest is explained by different reasons. The main of them is that in spite of hard colonial policy, conducted by tsarist regime in Northern Azerbaijan, in XIX century and at the beginning of XX century the development of secular schools with European system and confirmation of modern cultural and social values was more successful than in period before present.

In period of globalization and intensification of geopolitical fight new investigations, aimed to definition of Azerbaijani nation position in the world is also of great importance.

**The first chapter** of work is named "Some geopolitical aspects of Russian education policy in Azerbaijan", it consists of two paragraphs. In these paragraphs – "The setting of new education policy problem in the country" and "Occupation of Azerbaijan by Russia and attempts of transformation into historical- pedagogical process of new type" the processes, took place in education system in that period are spoken about.

**The second chapter** is named “Factors, defining establishing of new, state system of education in Azerbaijan in I part of XIX century ” and it consists of two following paragraphs: “Process of conquest: rivalry of new, secular schools with traditional Moslem schools” and “ Influence of new forms of administrative management on education development”. In both paragraphs the relations between two kinds of schools and factors, influenced upon them are expounded.

**The third chapter** of dissertation, named “Development tendencies of education system in Azerbaijan in II half of XIX century” consists of two paragraphs: “Consideration of regional peculiarities in education institutions management” and “Transition to general imperial model of education”. In these paragraphs main actual problems, connected with national peculiarities and integration into Russian education system are studied.

**The fourth chapter** of dissertation is named “New public and educational surrounding in Northern Azerbaijan at the beginning of XX century and it’s influence on education development”. It consists of three paragraphs: “General characteristics of public and educational movement in pointed period”; “Response of imperial public pedagogical movement in Sothern Caucasus and Azerbaijan”; “Public and pedagogical surrounding in national regions and new directions of education development”. In these paragraphs pedagogical movement in Russia and Azerbaijan is characterized and the main directions of that process are defined.

In **conclusion** main results, got from the scientific investigation are generalized.

In dissertation work it’s also pointed out, that now Azerbaijan has some difficulties because of Armenian aggression. Resulting form that fact and basing on calls by national leader Heydar Aliyev about necessity of adequate steps on this matter and humanitarian demands of time we can say rightfully about topicality of this research. It must also pointed out, that this scientific work is based on geopolitical realias of national education history in tsarist Russia and in soviet period also.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи.**

**Гасан Байрам оглы Байрамов**

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ПОЛИТИКИ ОБРАЗОВАНИЯ ЦАРСКОЙ РОССИИ В АЗЕРБАЙДЖАНЕ

5804.01- Общая педагогика, история педагогики и образования.

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени доктора
наук по педагогическим наукам

**Баку– 2017**